Xalqın qəzeti!

# Xalq qəzeti

№ 134 (30250) 25 iyun 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğ ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir – birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi.

# Azərbaycan Ordusu – Böyük Qayıdışın mötəbər sipəri



**Ulu öndər Heydər Əliyevin ordu, hərbçilər haqqında söylədiyi məşhur ifadələrindən biri belə idi ki, silahlı qüvvələrin vəzifəsi təkcə ölkə sərhədlərini, dövlətin maraqlarını qorumaqdan ibarət deyil. Ümummilli liderimiz əlavə edirdi ki, ordumuz həm də sadə bir vətəndaşın, əkinbiçinlə məşğul olan kəndlilərin, sərhəd bölgəsində yaşayan sakinlərimizin təhlükəsizliyini də təmin edir və edəcəkdir.**

Xatırladaq ki, 44 günlük İkinci Qarabağ müharibəsinin nəticələrindən sonra Azərbaycan əsgərinin üzərinə düşən vəzifələr kifayət qədər artmışdır. Çünki Böyük Qayıdışın ilkin mərhələlərinin reallaşdırılmasından ciddi şəkildə narahat olan, daha doğrusu, "ermənilik" xəstəliyindən əziyyət çəkən İrəvan rəsmiləri Azərbaycanın ünvanına çoxsaylı təhdidlər səsləndiriblər. Son iki il yarımda şərti sərhədlərimizin qorunmasında iştirak edən əsgərlərimiz də, dinc sakinlər də dəfələrlə silahlı təxribatlara məruz qalıblar. Bu faktı ona görə xatırladıram ki, "qarşı tərəf törətdiyi bütün təxribatlara görə layiqli cavabını almışdır" – ifadəsini də yada salım.

*(ardı 3-cü səhifədə)*

# Turan sevdasından Türk dövlətləri birliyinə

## *Tarixi köklər üstündə ortaq hədəflər*




**Xəbər verdiyimiz kimi, ötən günlərdə ölkəmizin qonağı olmuş tanınmış türkoloq, Türkiyənin İzmir şəhərindəki Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı, professor Fikrət Türkmənlə redaksiyamızda görüşüb müsahib olmuşduq. Qardaş ölkədə həmişə "Can Azərbycan!" deyənlərin ön sırasında olmuş böyük dostumuzla söhbətimizin bir önəmli mövzusu da tarixdən gələn Turan mənəvi ortaqlığından çağdaş Türk Dövlətləri Təşkilatına uzanan yolun gerçəkləri və hədəfləri olmuşdu. Uzman araşdırmaçı ilə II müsahibəni də oxucularımıza təqdim edirik.**

– Fikrət bəy, necə deyərlər, göydə axtardığımız vaxt yerdə əlimizə düşmüsünüz. Görüşləriniz çox, vaxtınız az olsa da, ölkələrimizdə gündəm təşkil edən, üstün mövzu sayılan Turan sevdamızdan da danışaq. Türk dövlətləri birliyinin aktual yönlərinə nəzər salaq. Sohbətimizə ulu öndər Heydər Əliyevin sözləri ilə başlayaq: Biz bir kökdənik, birdilli xalqlarıq, bunlar xalqlarımızı həmişə bir-birinə bağlayıb.

*(ardı 8-ci səhifədə)*

# Bütün yollar Xankəndiyə aparır



Səhifə ⇨ 4

# Xarici diplomatlar Laçında olublar



Səhifə ⇨ 2

## Kənd tərəqqinin önəmli cəbhəsidir



Səhifə ⇨ 7

## Köhnə avtomobillərlə bağlı yeni şərtlər



Səhifə ⇨ 7

## Qədim Dərbəndin poetik mənzərəsi



Səhifə ⇨ 9

## Süni intellekt jurnalisti əvəz edə bilərmi?



Səhifə ⇨ 10

# Söyüdlülər tibbi müayinədən keçirlər



Səhifə ⇨ 3

# Baxmut yaxınlığında vəziyyət gərgindir

Səhifə ⇨ 10

# Paşinyan hökumətində ikitirəlik: sağa da əyilən var, sola da



Səhifə ⇨ 4

# Putin: Bu, silahlı qiyamdır



Səhifə ⇨ 6

# "Heydər Əliyev adına təqaüd"ün təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 (yüz) nəfər tələbə üçün "Heydər Əliyev adına təqaüd" təsis edilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən təqaüd Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına 3000 (üç min) manat məbləğində birdəfəlik verilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2023-cü il**

# Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Milli Kitabxanası yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, qarşıya qoyulan vəzifələrin öhdəsindən həmişə layiqincə gələrək ötən müddət ərzində cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış, ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir.

Özünəməxsus memarlıq üslubuna malik əzəmətli binada yerləşən Milli Kitabxana bu gün fəaliyyət dairəsini daha da genişləndirərək milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlər gerçəkləşdirir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində daim təkmilləşdirən Milli Kitabxana hazırda dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin mədəni-ictimai həyatında rolunu və kitabxana işinə töhfələrini nəzərə alaraq, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2023-cü il**

# Akira Amarinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Akira Amari "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2023-cü il**

# N.A.Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 2005-ci il 13 dekabr tarixli 7-IIIKQD nömrəli Konstitusiya Qanununun I hissəsinin 4-cü bəndinə və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Nizami Abdulla oğlu Səfərov Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 24 iyun 2023-cü il**

# Nazir Laçın yolunu açmaq üçün Azərbaycanın şərtini açıqlayıb

## *Ermənistan ərazidə təhlükəsizliyə zəmanət verməlidir*



**Xarici işlər naziri Ceyhun Bayramov iyunun 24-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiç ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanla BQXK arasında əməkdaşlıq məsələləri, Laçın yolu ətrafında vəziyyət, habelə BQXK-nin Azərbaycanın Xankəndi şəhərində fəaliyyəti məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyəti ilə bağlı yaranmış vəziyyətlə əlaqədar bildirib ki, məntəqə təsis edildən sonra gündəlik əsasda erməni sakinlərin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlanan keçidi üçün müvafiq şərait yaradılıb, 23 aprel tarixindən yüzlərlə erməni sakinin keçidi təmin olunub. Erməni sakinlərlə sərhədçilərimiz arasında normal ünsiyyət formalaşdırılması bu prosesi həzm edə bilməyən Ermənistanın 15 iyun tarixində keçid məntəqəsini atəşə tutması ilə nəticələnib və bu, Laçın sərhəd buraxılış məntəqəsindən təhlükəsiz keçidə maneçilik törədib.

Azərbaycan tərəfinin hal-hazırda sərhəd məntəqəsindən təhlükəsiz keçidə manea olmuş Ermənistanın bu hücumunu araşdırmaq məqsədilə müvafiq tədbirlər gördüyü diqqətə çatdırılıb. Eyni zamanda, vurğulanıb ki, Ermənistanın gələcəkdə bu kimi təxribatlarının təkrarlanmayacağına dair Azərbaycan tərəfinə müvafiq zəmanətin verilməsi zəruridir.

Qeyd edilən zəruri tədbirlər görülməklə yanaşı, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinə və zəruri tibbi ləvazimatların təchizatına imkan yaratmağa Azərbaycan tərəfinin hazır olduğu bildirilib. Mövcud vəziyyətlə əlaqədar, Erməni sakinlərin digər tədarük ehtiyaclarına gəldikdə, Azərbaycan tərəfinin BQXK vasitəsilə Ağdam–Xankəndi yolundan istifadə etməklə yardım göstərmək imkanının mövcud olduğu qeyd edilib.

Görüş zamanı, eyni zamanda digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Xalq qəzeti"***

# Xarici diplomatlar Laçında olublar

**İyunun 24-də ölkəmizdə akkreditə olunmuş diplomatik korpusları təmsil edən nümayəndə heyəti işğaldan azad olunmuş Laçın rayonuna səfər ediblər. Nümayəndə heyətinin tərkibinə 33 ölkədən və 10 təşkilatdan, ümumilikdə, 60-a yaxın diplomat və hərbi attaşe daxil edilib.**



Səfər çərçivəsində diplomatlar "Laçın" sərhəd-gömrük buraxılış məntəqəsində də olublar. Buraxılış məntəqəsində də yaradılmış şəraitlə tanışlıq zamanı diplomatlar yolun bağlanması barədə Ermənistan tərəfinin təxribatçı iddialarının həqiqətə uyğun olmadığına şəxsən əmin olublar. Məlumat verilib ki, iyunun 15-də Azərbaycan hərbçisinin yaralanması ilə nəticələnən erməni silahlı təxribatı ilə bağlı hazırda burada istintaq tədbirləri aparılır. İnsidentin baş verməsi faktı barədə xarici diplomatlara ətraflı məlumat verilib.

Diplomatlara o da billdirilib ki, hazırda tibbi yardıma ehtiyacı olan vətəndaşların daşınması üzrə Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyəti üçün şərait yaradılıb. Beləliklə, "blokada" haqqında istənilən iddialar erməni tərəfinin manipulyasiyalarıdır, hansı ki, Azərbaycan tərəfindən istintaq tədbirlərinin aparılması faktından yalançı təbliğat üçün istifadə edilər. Bununla bağlı diplomatlara ətraflı məlumat vermək üçün onlar Həkəri çayı üzərindəki körpünün qarşı tərəfinə gətirilliblər.

Diplomatik korpus üzvləri əvvəlcə Laçında Bayraq meydanı və Həkəri çayının sahilində salınan Heydər Əliyev küçəsini ziyarət ediblər.

Laçında aparılan yenidənqurma və abadlıq işləri ilə tanış olan diplomatlar 1 Dekabr küçəsində salınmış ilk yaşayış məhəlləsinə baxış keçirib, artıq yurd-yuvasına geri dönmüş sakinlərlə söhbət ediblər. Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhərdə, ümumilikdə, 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur.

Diplomatik korpus nümayəndələri, həmçinin Zabux kəndində tam sürətlə davam edən tikinti quruculuq işləri ilə də yaxından tanış olublar.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri Laçında qurulmaqda olan "Aqro-Sənaye Parkına baş çəkiblər. Burada onlara sənaye parkının imkanları barədə ətraflı məlumat verilib. Aqro Sənaye Parkının Laçının iqtisadi dirçəlişi və əhalinin məşğulluğu baxımından xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunub. Diqqətə çatdırılıb ki, burada 46 şirkət fəaliyyət göstərəcək və ümumilikdə, 1200-ə yaxın laçınlı işlə təmin olunacaq.

Sonda xarici diplomatlar Zəngilanın Ağalı kəndinə baş çəkiblər.

Qeyd edək ki, səfərdə diplomatları ölkəmizin aparıcı kütləvi-informasiya vasitələrinin nümayəndələri təmsil ediblər.

***(Səfər haqqında geniş yazı qəzetimizin növbəti sayında dərc olunacaq)***

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Milli Məclisin iclasında**

# Azərbaycanda yeni medallar təsis edilir



**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbədənkənar növbəti iclası keçirildi. Parlamentin Sədri gündəliyə 20 məsələnin daxil edildiyini bildirdi. Birinci məsələni – N.A.Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisi qərarının layihəsini təqdim etdi. Səsvermə nəticəsində Nizami Səfərov yenidən Məhkəmə-Hüquq Şurasının üzvü seçildi.**

Parlamentin Sədri bildirdi ki, 2–5-ci məsələlər üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Komitə sədrləri əlavə rəy və təkliflərin təqdim edilmədiyindən qanun layihələrin səsə qoyulmasını təklif etdilər.

Gündəlikdəki digər qanun layihələrinin müzakirəsindən sonra "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanuna dəyişiklik edilməsi barədə məsələ təqdim olundu. "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)", "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993-2023)" və "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993–2023)" yubiley medallarının təsis edilməsi ilə əlaqədar qanunlara dəyişiklik layihəsi birinci oxunuşda müzakirədən sonra səsə qoyularaq qəbul edildi.

"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim etdi. Bu qanunun ödəniş imkanlarını genişləndirəcəyini diqqətə çatdıran komitə sədri sənədin qəbulundan sonra nağdsız ödənişlərin əhatə dairəsinin innovativ texnologiyalar və rəqəmsal ödəniş alətləri əsasında daha da artırılmasına təkan verəcək.

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Qanun layihələrinin müzakirəsindən sonra S.Qafarova 26 İyun – Silahlı Qüvvələr Günü ilə əlaqədar təbriklərini çatdırdı. Dedi ki, bu gün silahlı qüvvələrimiz işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerini yetirirlər.

S.Qafarova qeyd etdi ki, bu gün silahlı qüvvələrimiz işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunmaı naminə öz vəzifələrini layiqincə yerinə yetirirlər. O, əminliklə bildirdi ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə daha da inkişaf edəcək, dünyanın ən güclü orduları sırasında öz mövqeyini və yerini möhkəmləndirəcək.

Sədr Silahlı Qüvvələr Günü münasibətilə müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevi, silahlı qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularını təbrik etdi.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Fərid Qayıbov UNESCO nümayəndə heyətini qəbul edib

**Gənclər və idman naziri Fərid Qayıbov MINEPS VII konfransı ilə əlaqədar ölkəmizdə səfərdə olan UNESCO nümayəndə heyətini qəbul edib.**



Nazir MİNEPS VII konfransına hazırlıq işləri barədə qonaqları məlumatlandırıb. UNESCO-nun sosial və humanitar elmlər üzrə baş direktonun müavini Qabriela Ramos Azərbaycanda olmaqdan məmnunluğunu qeyd edib.

Görüşdə MINEPS VII konfransının ölkəmizdə keçirilməsinin əhəmiyyəti qeyd olunub və təşkilati işlərin başa çatdığı bildirilib. Konfransın proqramında əks olunan məsələlər, o cümlədən də "Fit for life" layihəsinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusu – Böyük Qayıdışın mötəbər siperi

*(əvvəli 1-ci səhifədə)*

Təbii ki, düşmən bundan sonra daha kəsərli və konkret cavablar görəcək. Çünki Azərbaycanın hərbi gücü nəinki ötən əsrin 90-cı illərindəki ordumuzdan, hətta, 2020-ci ildə düşməni diz çökdürən silahlı qüvvələrimizdən də qat-qat artıqdır. Dövlət başçımız iyunun 23-də Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olandan və hərbi hissəyə Döyüş Bayrağını təqdim edəndən sonra əsgərlər qarşısındakı çıxışında dedi ki, bundan sonra da ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək: “Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir. Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmır, hər bir təxribata layiqli cavab verilir, istər hərbi cavab, istər siyasi cavab. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni, bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən, ilk növbədə, bizim hərbi potensialımızdır”.

Bu məqamda bir məsələni xüsusilə vurğulamaq istəyirik. Belə ki, ötən ilin dekabrından bəri dünyanın az qala bütün mətbuat vasitələrinin gündəliyindən düşməyən “Laçın yolu” problemini Azərbaycan dövləti məhz silahlı qüvvələrimizin gücü ilə həll etdi. Dövlət başçımız hərbçilər qarşısındakı son çıxışında xatırlatdı ki, Azərbaycan – Ermənistan şərti sərhəd istiqamətində baş vermiş hadisələr, ermənilərin yaşadıqları Qarabağ bölgəmizdə hərbi əməliyyatlar və iki ay əvvəl Ermənistan – Azərbaycan sərhədində, Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir. Yəni, biz bütün addımlarımızı vahid proqram əsasında atmışıq: “Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi”.

Bu məqamda yada salınmalı faktlardan biri də Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu söz sahibi olmasıdır. Bədxahlarımız və düşmənlərimiz Prezident İlham Əliyevin siyasətçi reytinqini, diplomat nüfuzunu və Qoşulmama Hərəkatının sədri olaraq çəkisini öz qarşılarında sipər kimi görürlər. Hamıya gün kimi aydındır ki, Ermənistan ordusu darmadağın ediləndən, İrəvan rəhbərliyi təslim aktına qol çəkəndən sonra da işğalçı dövlətə Avropadan, Amerikadan, Rusiyadan, İrandan çoxlu vədlər verildi və yardım adıyla silah-sursat göndərildi.

Fransa Prezidenti Emmanuel Makron isə Ermənistanın maraqlarını müdafiə etmək üçün nəinki dövlət başçısına, hətta, sıravi siyasətçiyə də yaraşmayan riyakarlıqlarla özünü rüsvay etdi. Ancaq onun nüfuzuna ən sarsıdıcı zərbəni fikrimcə, Azərbaycan Ordusu vurdu. Belə ki, bilavasitə Makronun təşəbbüsü ilə Ermənistana “təqaüdə çıxmış” fransız polislərdən ibarət “müşahidə missiyası” göndərilmişdi. Guya, həmin missiya gəlib Laçındakı sərhəd nəzarət buraxılış məntəqəsinin ləğvinə nail olacaqdı. Gəldilər, bir neçə təxribatın plan-proqramını verdilər və hətta, erməniləri həmin məntəqəyə silahlı hücum etmələrinə də ruhlandırdılar. Nəticədə isə Azərbaycanın mövqeləri daha da möhkəmləndi və cavablarımız həmişəkindən kəsərli oldu. Çünki liderimiz iradəli, siyasətimiz qətiyyətli, ordumuz qüdrətli, əsgərimiz peşəkardır.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə, evlərin açarlarını onlara təqdim edəndən sonrakı çıxışında demişdi ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra həm Azərbaycan – Ermənistan sərhədində, həm Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərdə, həm sərhəd-buraxılış məntəqəsini qoymaqla biz yeni reallıq yaratdıq və Ermənistanı məcbur etdik ki, dediyimizi onlar da təkrarlasın: “Mən bunu İkinci Qarabağ müharibəsi başa çatandan sonra demişdim, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar deyəcəklər: Qarabağ Azərbaycandır! Onlar cəmi 3-4 il bundan əvvəl “Qarabağ Ermənistandır” deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq”.

Bəli, Azərbaycan Ordusu ermənilərə də, onların havadarlarına da çox həqiqətləri qandırdı. Həyat bir daha onu göstərdi ki, Azərbaycan rəhbərliyi nə deyirsə, onu da edir. May ayının ortalarında Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq bizim dövlət başçımızın bir neçə il bundan əvvəl dediyi “Qarabağ Azərbaycandır!” sözlərimin təkrarı idi. Bu, təkcə siyasətimizin və diplomatiyamızın uğuru deyil, həm də Azərbaycan əsgərinin diktəsidir.

O ki qaldı Ermənistan və İranın ciddi-cəhdlə mane olmağa çalışdığı Zəngəzur dəhlizinə, birmənalı şəkildə deyə bilərik ki, həmin layihə məhz Azərbaycanın istədiyi şəkildə icra olunacaq. Çünki bu gün dünya ölkələri çox böyük iqtisadi problemlərlə üz-üzədir. Hamı bu sınaqlardan çıxış yolunun axtarışındadır. Ən uğurlu yol isə bütün ölkələrin iqtisadi imkanlarının birləşdirilməsinə kömək edəcək nəqliyyat-logistika mərkəzlərinin yaradılmasıdır. Şanxay–London ticarət yolunu Orta dəhliz vasitəsilə birləşdirən Zəngəzur dəhlizi də məhz həmin zərurətdən bütün güc mərkəzlərinin diqqət mərkəzindədir. Bu yolun açılmasını Vaşinqton da, Moskva da, Brüssel də, Pekin də – Tehran istisna olmaqla, hamı istəyir. Həmin layihədən ən çox bəhrələnənlərdən biri isə İrəvan ola bilər. Tehran İrəvanı bu möhtəşəm layihədən kənarda saxlayır.

Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti deyir ki, Zəngəzur dəhlizi Ermənistan istəsə də, istəməsə də açılacaq. Daha maraqlı məqam isə odur ki, dövlət başçımız bu fikirləri səsləndirəndə əvvəlki illərdə baş vermiş faktları da yada salır: “Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun”.

Yolun açıq olsun, Azərbaycan Ordusu! Bayrağımızı ölkənin hər yerində ucaldan Azərbaycan əsgəri, sənin bütün dünyanın diqqət mərkəzində olan Zəngəzur dəhlizinə nəzarət etdiyin günləri də gözləyirik!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Hikmət Hacıyev xarici diplomatik korpusla Laçında




**"Xarici diplomatik korpusla birlikdə “Laçın” sərhəd-buraxılış məntəqəsindəyik. Ermənistanın törətdiyi təxribatdan sonra aparılan müvəqqəti istintaq tədbirlərini sərhəd-buraxılış məntəqəsinin bağlanması kimi qələmə vermək əsassızdır".**

Bunu Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter” səhifəsində yazıb.

# Söyüdlülər tibbi müayinədən keçirlər





**Gədəbəyin Söyüdlü kəndində əhalinin sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə səhiyyə orqanları Söyüdlü kənd sakinlərinin tibbi müayinələrini təşkil edib.**

Gədəbəy Rayon Mərkəzi Xəstəxanasının 16 nəfərdən ibarət tibbi briqadası tərəfindən Söyüdlü həkim tibb məntəqəsində yerli sakinlərin tibbi müayinələri aparılır. Həkim briqadasının tərkibinə terapevt, kardioloq, pediatr, lor, cərrah, nevroloq, psixiatr, ultrasəs və laborator xidmətlər üzrə mütəxəssislər daxildir.

İndiyədək müayinədən keçmək üçün müraciət edən 30 nəfərədək vətəndaşın hər biri zəruri laborator və instrumental müayinələrdən keçirilib və onlarda xüsusi patologiyalar aşkar edilməyib.

***

Qeyd edək ki, Gədəbəy rayonunun Söyüdlü kənd sakinlərinin sağlamlığının və ətraf mühitin qorunması sahəsində vətəndaşların müraciətlərinin araşdırılması məqsədilə müvafiq komissiya tərəfindən ərazidə kompleks monitorinqlər davam etdirilir.

Komissiyadan bildirilib ki, hazırda ərazidə aidiyyəti qurumlar tərəfindən ətraf mühitə təsirlər qiymətləndirilir, tibbi sağlamlıq nöqteyi-nəzərindən xəstəliklərin statistikası və dinamikası təhlil edilir, tibbi müayinələr keçirilir. Pay torpaqlarında və örüş sahələrində məhsuldarlığa, mal-qaraya neqativ təsirlər öyrənilir, su və torpaq nümunələri götürülərək analizlər aparılır, atmosfer havasının keyfiyyəti yoxlanılır.

Aparılan kompleks monitorinqlərin nəticələri təhlil olunacaq və təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim ediləcək.

Xatırladaq ki, Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sərəncamı ilə komissiya yaradılıb, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev komissiyanın sədri təyin edilib. Komissiyanın tərkibinə səhiyyə nazirinin müavini, fövqəladə hallar nazirinin müavini, kənd təsərrüfatı nazirinin müavini, Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi və Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı daxildir.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# Azərbaycanda əqli mülkiyyət sahəsi inkişaf etdirilir

**Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov iyunun 24-də Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktorunun müavini Hasan Kleyb ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında uğurlu tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Azərbaycanda əqli mülkiyyət sahəsində aparılan ardıcıl islahatlar barədə məlumat verilib. Dövlətimizin başçısı tərəfindən iqtisadiyyatın davamlı inkişafının, biliklərə əsaslanan cəmiyyətin formalaşdırılmasının və insan kapitalına investisiyaların qoyuluşunun başlıca strateji məqsədlərdən biri kimi müəyyənləşdirildiyi vurğulanıb.

Görüş əsnasında, həmçinin Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

***

**Dünən Xarici İşlər nazir Ceyhun Bayramov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktorunun müavini Hasan Kleybin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə əqli mülkiyyətin qorunması sahəsində beynəlxalq tərəfdaşlıq, eləcə də Azərbaycanla ÜƏMT arasındakı mövcud əməkdaşlıq əlaqələri müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında geniş əməkdaşlıq əlaqələrinin olduğunu qeyd edərək, əqli mülkiyyət üzrə işlərin təkmilləşdirilməsi sahəsində ölkəmizdə həyata keçirilən fəaliyyətin bir sıra istiqamətləri barədə məlumat verib. Nazir diqqəti, eyni zamanda Ermənistan tərəfindən ərazilərimizin 30 illik işğalı dövründə yer adlarımızın dəyişdirilməsi, Azərbaycana məxsus olan mədəni sərvətlərin və mədəni irs obyektlərinin Ermənistan tərəfindən talan edilməsi və ya adlarının dəyişdirilməsinə yönəldib.

***

**İqtisadiyyat naziri Mikayıl Cabbarov və Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktorunun müavini Hasan Kleyb Kleib ilə görüşüblər.**

Görüşdə bildirilib ki, Azərbaycanda son illər ərzində elmi tədqiqat potensialı müasirləşdirilib, müasir texnologiyaların tətbiqində əqli mülkiyyətin rolu artırılıb. Ölkəmizin milli prioritetlərinin 2-si məhz Azərbaycanın dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata, rəqabətli insan kapitalına sahib olmasını və müasir innovasiyalar məkanına çevrilməsini hədəfləyir.

Qeyd edilib ki, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı, aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, peşə hazırlığının keyfiyyətinin artırılması müasir çağırışlar olaraq ölkəmizin də əsas məqsədlərindəndir və bu istiqamətdə müvafiq işlər görülür.

Hasan Kleyb əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması, effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması barədə fikirlərini bölüşüb, ölkəmizin bu istiqamətdə əldə etdiyi nəticələri yüksək qiymətləndirib.

***“Xalq qəzeti”***

# Zaur Əliyev Gəncədə vətəndaşları qəbul edib



**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Gəncə Şəhər Birləşmiş Xəstəxanasında Gəncə, Samux və Kəlbəcər sakinlərini qəbul edib.**

Qəbulda 40 vətəndaşın müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən müayinə-müalicə, cərrahi əməliyyatlar, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi, dərman təminatı, əlillik məsələləri, iş və əmək münasibətləri ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

***“Xalq qəzeti”***

# Bütün yollar Xankəndiyə aparır

## Separatizm üçün daralan çəmbər və Qarabağ ermənilərinə seçim variantı: Ortada nə Qərb olsun, nə də Rusiya

**"Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını hər hansı bir ölkə ilə, o cümlədən, Ermənistanla müzakirə etmək fikrində deyilik. Bu, bizim daxili işimizdir". Yazımıza Azərbaycan Prezidenti İlham Əliyevin fikirləri ilə başlamağımız təsadüf deyil. Hazırda bu mövzuda, sanki, bıçaq sümüyə dirənib. Çünki sülh prosesinə xəyanət yolu tutan Ermənistan silahlı qüvvələrinin Həkəri körpüsündəki sərhəddə yerləşən nəzarət-buraxılış məntəqəsində Azərbaycan hərbçilərinə atəş açmaları dramatik vəziyyət formalaşdırıb...**



Artıq intensivliyi şübhə doğurmayan Qərb tənzimləmə formatı, belə demək mümkünsə, süst duruma düşüb. Rusiya nizamlama xəttinə gəldikdə isə deməliyik ki, ölkənin başı Ukrayna münaqişəsinin doğurduğu siyasi böhrana qarışıb. Bu sıraya dünənki "Vaqner" qiyamı"nı da əlavə etsək, Moskvanın üzləşdiyi durumun nəticələrini qısa zamanda aradan qaldırması ehtimalı azdır...

Bəli, Azərbaycan Qarabağ erməniləri ilə birbaşa dialoqa üstünlük verir. Ortada nə Qərb olsun, nə də Rusiya. Əslində, məsələyə dialoq məntiqi ilə yanaşmaq da bir o qədər yerinə düşmür. Hesab edək ki, Qarabağ erməniləri uzun müddət erməni separatizminin, aqressiv millətçiliyinin girovunda olublar, indi biz onlara kömək edirik ki, bu buxovları boyunlarından atsınlar. Üstəlik, separatizm bölgəni sosial cəhətdən iflic hala saldığından, dövlətimiz çalışır ki, yerli əhali ilə danışıqlar müstəvisində, yığılıb qalmış problemləri öyrənsin, gələcək fəaliyyət konturlarını müəyyənləşdirsin.

Axı, ermənilərin Azərbaycan ərazisindəki mövcudiyyətinin 1830-cu ildən başlamış tarixi var. Biz tarixdə ilişib qalmırıq, onlar hansı məqsədlə, hansı məramla bölgəyə yerləşdirilib? Bu, qalsın keçmişdə. Hər halda, yaşayıblar, nəsilləri də indi yaşamaqdadırlar. Yetmiş illik sovet hakimiyyəti illərində də ömür sürüblər. Heç kəs onlara gözün üstə qaşın var deməyib. Biz yenə də eyni fikirdəyik. Üstəlik, ilişib qalmaq istəmədiyimiz daha bir tarixə – 1988-ci ilə istinad edirik.

O zaman Ermənistan–Azərbaycan münaqişəsi başlananda, istər keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində, istərsə də ətraf rayonlarımızda təkəm-seyrək məskunlaşmış sadə ermənilər Azərbaycan rəhbərliyinə məktublar ünvanlayıb vəziyyətin dramatik şəkil almasına yol verməməyi xahiş etmişdilər. Çünki onlar hadisələrin hansı məcraya getdiyini, düşmənçilik və nifaq yaratmaq meyillərinin artdığını, proseslərin "sistemli" şəkildə idarə olunduğunu yaxşı görürdülər.

İndi həmin məktubları sıralayanların xələfləri eyni addımı atmalıdırlar. Özü də qətiyyətli şəkildə. Nəzərə almalıdırlar ki, hazırkı Azərbaycan hakimiyyəti ötən əsrin 80-ci illərinin sonlarındakı hakimiyyət deyil, qat-qat prinsipialdır. Deməli, Qarabağ erməniləri prinsipiallığa adekvat xoş münasibət göstərməlidirlər. Özlərində güc tapmalıdırlar. Əks halda, Bakının qətiyyətli yanaşmasının hədəfinə çevrilmələri qanunauyğunluqdur.

Burada, söhbət ondan getmir ki, Azərbaycan suveren haqlarına uyğun şəkildə Xankəndidəki separatçı rejimi devirməyə qalxsa, dinc əhaliyə zərər yetirəcəkdir. Xeyr. Sadəcə, dövlət öz ərazisindəki üsyanı, indiki halda təhlükəli ekstremizmi aradan qaldırırsa, bunun həyata keçirilməsini zəruriləşdirən forma və üsullar kompromissizdir. Ona görə də, yaxşı olar ki, Qarabağ erməniləri bəribaşdan ortaya mövqe qoysunlar. Ya Azərbaycanın yurisdiksiyası altında yaşamaq, ya da Qarabağı tam tərk etmək.

Qarabağ erməniləri Ermənistana və havadarlarına da güvənməsinlər. İstər 44 günlük müharibə, istərsə də müharibədən sonra bölgədə daralmaqda olan separatizm çəmbəri onu göstərir ki, heç bir halda Azərbaycan öz maraq və mənafelərinin təmin edilməsindən çəkilməyəcəkdir. Ölkəmiz belə davranmaq üçün otuz ildən artıq bir müddətdə, kifayət qədər ciddi beynəlxalq siyasi və mənəvi mühit formalaşdırmağı, immunitet qazanmağı bacarıb. Yəni, Bakının hər demarşının arxasında konkretlik var. Prezident İlham Əliyev nəinki heç bir fikri, heç bir sözü də elə-beləden demir. Dövlətimizin başçısının hər ifadəsi reallıqla fiksasiya təbiətinə malikdir. Buna görə onun bildirdikləri əsasdır, mütləqdir, şərtdir.

"Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir". Bu fikirləri Prezident İlham Əliyev bu il aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində söyləmişdi. Dövlətimizin başçısı da həmin müsahibəsində demişdi ki, Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar: "Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır".

Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında öz doğma yurd-yuvasına qayıtmış yerli əhali ilə görüşündə isə bunları bildirmişdi: "Aprelin 23-də sərhəddə qoyulan sərhəd-buraxılış məntəqəsi bu gün Qarabağ bölgəsində yaşayan ermənilər üçün də bir dərs olmalıdır. Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq. Birincisi, bu, qanunsuzdur. Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır".

***

Bəli, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, həm separatçılar, həm də Qarabağ erməniləri yuxudan ayılmalıdırlar. Nəzərə almalıdır ki, biz bu iki cinahı bir-birindən ayırırıq. Hələlik ayırırıq. Bu gün üçün belə edirik. Sabah vəziyyət dəyişə də bilər... Yuxudan ayılmağı sübuta yetirməyin ən yaxşı yolu isə ağzı köpüklü, günü-gündən dövlətimizin amnistiya humanizmi ilə bağlı verdiyi şansı itirən separatçılardan fərqli olaraq, Azərbaycan rəhbərliyi ilə danışıqlara başlamaqdır.

İlk baxışdan, bir-birinə qarşı olduğu təsiri bağışlayan separatçı rejim və Ermənistan hakimiyyəti, əslində, eyni mövqeni bölüşür. Birincilər müstəqillik zəngulələri vurub maksimalizm nümayiş etdirir, İrəvan isə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini qabardır. Oyun, təxminən, belə qurulub: çox istəyək ki, azla qane olaq. Burada çox müstəqillik avantürasıdırsa, az hüquq və təhlükəsizlik təminatına dair iddianın reallaşdırılmasıdır.

Ermənistan hakimiyyəti, eləcə də ermənipərəst dairələr Azərbaycanın Qarabağ erməniləri ilə danışıqları məntiqindəki məqamları saymazdan gələrək, Bakı–Xankəndi dialoqu kimi sərsəm fikri gündəmə gətirirlər. Beləcə, gələcək avantürizm üçün hüquqi baza formalaşdırmaq yolu tuturlar. Bu "yanaşma" Azərbaycan-Ermənistan danışıqlarına, o cümlədən üfüqdə közərən sülh müqaviləsi gündəminə Qarabağ erməniləri ilə bağlı, onları imtiyazlı təbəqə kimi vurğulayan ayrıca müddəanın daxil edilməsini hədəf seçib. Azərbaycan cəmiyyəti mövcud istiqamətdəki canfəşanlığın, erməni təəssübünün Avropa Şurası Parlament Assambleyası təzahürünü bu il iyunun 22-də gördü. Qurumun həmin gün çıxardığı anti-Azərbaycan yönümlü qərəzli qətnaməsində bildirildi ki, Bakı-Xankəndi dialoqu üçün beynəlxalq mexanizmlər formalaşmalı, bölgəyə BMT-nin, Avropa Şurasının faktaraşdırıcı missiyası, müşahidəçiləri göndərilməlidir və guya, Bakı bunu təmin etməlidir. Həqiqətən, gülünc tələbdir. Çünki Azərbaycan erməni əhali üçün böyük təminatlardan danışır, bunlar cılız prinsip qondarırlar.

Əlbəttə, ölkəmiz dünya erməniliyinin, Fransa başda olmaqla, Qərb ermənipərəstlərinin kluarlarında hazırlanmış bu sayaq kağız parçalarını saya salan deyil. Üstəlik, özünün ərazi bütövlüyünün və suverenliyinin bütün anlamlarda qorunmasında israrlı davranan Bakı Beynəlxalq Ədalət Məhkəməsinin və Avropa İnsan Haqları Məhkəməsinin siyasi motivlərə köklənmiş, hər zaman hüquqi interpetasiyaya açıq qərarlarındakı "Laçın dəhlizi" məntiqinin manipulyasiya predmetinə çevrilməsinə də qətiyyən imkan verməyəkdir.

Ölkəmiz Laçın–Xankəndi yolunun başlanğıcındakı şərti sərhəddə – Həkəri çayı üzərindəki körpüdə özünün sərhəd nəzarətini yaradıb və bu, Ermənistanla sərhədi tam təmin etməkdir. Yəni, Qarabağ məsələsini praktiki olaraq da daxili işimizə çevirməkdir. Digər tərəfdən, rəsmi Bakı suverenliyimizə təhdid olan erməni iddialarının "çıxış nöqtəsi" sayılan "Laçın dəhlizi" məntiqini sıradan çıxarıb. Bütün bunlar isə üçrəngli bayrağımızın Xankəndidə dalğalanmasına doğru gedən yolda həlledici addımlardır. Bayrağımızın bu qədim şəhərimizdə dalğalanması isə Qarabağdakı separatizm üçün geriyədönüşsüz sondur.

***

Yazımızın sonunda isə, belə demək mümkünsə, Azərbaycanın qətiyyət dilinin ali təmsilçisi olan Prezident İlham Əliyevin iki fikrinə diqqət yetirərək, Qarabağ erməniləri, eləcə də erməni separatizmi üçün "təbil zəngi"nin çalınmasını və deməli, tarixdə yalnız erməni avantürizminin məhsulu kimi vətəndaşlıq hüququ qazanacaq Bakı-Xankəndi dialoqu iddiasının gündəmin zibiliyinə gömüləcəyini sübuta yetirək. Beləliklə, dövlətimizin başçısı mayın 28-də Laçında yerli əhali ilə keçirdiyi görüşündə bildirmişdi: "Ermənistan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar deyəcəklər: Qarabağ Azərbaycandır! Onlar cəmi 3-4 il bundan əvvəl "Qarabağ Ermənistandır" deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq. Onlara da, onların havadarlarına da, onlara bu gün dəstək verənlərə də o vaxt deyirdim ki, biz heç vaxt barışmayacağıq. Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik. Bir neçə gün bundan əvvəl Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq mənim bir neçə il bundan əvvəl dediyim "Qarabağ Azərbaycandır!" sözlərimin təkrarıdır".

Dövlətimizin başçısı iyunun 23-də Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub hərbi hissəyə döyüş bayrağını təqdim edərkən isə bunları demişdi: "Əgər Vətən müharibəsindən sonrakı birinci ayları götürsək, görərik ki, yenə də Ermənistanın havadarları bizə köhnə tezisləri qəbul etdirməyə çalışırdılar. Biz isə bunu qətiyyətlə rədd etdik və bu gün hər kəs görür ki, vaxtilə erməni işğalını əbədiləşdirmək üçün səylər göstərmiş Minsk qrupu artıq gündəlikdə yoxdur, tarixin arxivindədir. Hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!""

Bəli, Qarabağ Azərbaycandır və bu deyim heç bir avantürist meyilin beynəlxalq hüquq norması kimi ölkəmiz tərəfindən implementasiyasına meydan verəcək şərait tanımayacaqdır. Buna Ermənistan hakimiyyəti də, dünya erməniliyi də heç bir şübhə etməsin. Ən əsası isə buna Qarabağ erməniləri tam əmin olmalıdırlar. Onlar yaşadıqları, ömür sürdükləri torpaqda mövcudiyyətlərini davam etdirmək, rifah və əminamanlıq istəyirlərsə, bilməlidirlər ki, Azərbaycana sığınmağın alternativi əsla yoxdur. Əvvəldə dediyimiz kimi, Qarabağda çəmbər daralır. Ölkəmizin səbri də, həmçinin.

*Ə.CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

# Paşinyan hökumətində ikitirəlik: sağa da əyilən var, sola da

**Nikol Paşinyanın rəhbərlik etdiyi Ermənistan hökumətinin əsasən Qərbpərəstlərdən təşkil edildiyi heç kimə sirr deyil. Nazirlərin, komitə sədrlərinin və müxtəlif dövlət xidmətləri rəislərinin tərcümeyi-halı ilə tanışlıq zamanı buna əmin olursan. Onlar həm də Rusiyanın əleyhdarlarıdır. Bu dəstənin başında isə parlamentin sədri Alen Simonyan, xarici işlər naziri Ararat Mirzoyan, təhlükəsizlik şurasının katibi Armen Qriqoryan dayanır. Onların "Sorosun uşaqları" adlandırılması heç də təsadüfi deyil. Məsələn, Ararat Mirzoyan "məxməri inqilab"dan öncə İrəvanda anti-Rusiya nümayişləri təşkil edən şəxsdir. Bununla bağlı internetdə foto və videolar var. Sadəcə olaraq, onun və digər siyasi həmfikirlərinin tutduqları postlar bu gün öz mövqelərini aşkar ortaya qoymalarına imkan vermir.**



Qərbpərəstlərin "parlaq" nümayəndəsi Armen Qriqoryanla milli təhlükəsizlik xidmətinin direktoru Armen Abazyan arasında xeyli vaxtdır sürən münaqişə artıq açıq müstəviyə keçib. A.Qriqoryan vaxtilə Açıq Cəmiyyət İnstitutunun (Soros Fondu) maliyyələşdirdiyi "Transparency International" təşkilatında koordinator olub. İrəvan Dövlət Universitetini, sonra isə Ermənistan-Amerika Universitetini bitirib. Bu universitet 1991-ci ildə Ermənistan hökuməti, Ümumerməni Xeyriyyə İttifaqı və Kaliforniya Universitetinin əməkdaşlığı sayəsində yaradılıb və keçmiş SSRİ ərazisində ABŞ-da akkreditasiyadan keçmiş yeganə ali təhsil müəssisəsidir. O, Ermənistan hökumətində əsas Rusiya əleyhdarı kimi tanınır. Armen Abazyan isə əksinə, Rusiyaya bağlı şəxs hesab edilir. O, 1993-1994-cü illərdə Ermənistanda dislokasiya olunmuş Rusiya Federasiyasının Sərhəd Qoşunlarında xidmət edib. Abazyanın əleyhdarları bu faktı onu "vurmaq" üçün daim diqqət mərkəzində saxlayırlar.

***

İyunun 23-də Fransa xüsusi xidmət orqanları ilə açıq şəkildə əlaqəli olan "Intelligence Online" saytında "Armen Abazyanın milli təhlükəsizlik xidmətində nəsillərarası qarşıdurma" sərlövhəli məqalə dərc olunub. Məqalədə Fransa xüsusi xidmət orqanlarının qatı ruspərəst kimi təqdim etdiyi və Moskvanın göstərişlərini kor-koranə yerinə yetirdiyi iddia olunan A.Abazyan hədəfə alınıb. Ehtimal etmək olar ki, bu faktlar "Intelligence Online"-a Avropa İttifaqının Ermənistandakı missiyasında geniş şəkildə təmsil olunan fransız agentlər tərəfindən sızdırılıb. Qeyd olunur ki, A.Abazyan Rusiyanın Federal Təhlükəsizlik Xidməti ilə sıx əlaqədədir. Bu iddia onunla əsaslandırılır ki, sovet dövründə sərhəd qoşunları SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin tabeliyində olub, SSRİ dağılandan sonra 10 il müstəqil struktur kimi fəaliyyət göstərib, 2003-cü ildə isə yenidən FTX-nın tərkibinə daxil olub. Məqalədə nəsillərarası qarşıdurmadan bəhs edilərək bildirilir ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin kiçik və yüksək rütbəli zabitləri Rusiya FTX ilə informasiya mübadiləsinin əleyhinədirlər. Onların fikrincə, bu informasiyalar sonradan, guya, Azərbaycana ötürülür.

Caliber.Az saytı yazır ki, Emmanuel Makronun prezidentliyi altında "Beşinci Respublika"nın cəmiyyətdə bir sıra qeyri-populyar qərarlarından sonra hökumət sözün əsl mənasında, çat versə də Fransa Cənubi Qafqazda möhkəmlənmək niyyətini getdikcə daha aydın şəkildə nümayiş etdirir. Burada "kiçik bacısı" Ermənistan qollarını geniş açaraq onu qarşılayır: "Deyəsən, arzular və istəklər üst-üstə düşür. Fransa Ermənistana onun istədiyi qədər dərindən nüfuz edir. Ancaq hər şey o qədər də birmənalı deyil. Aydın olur ki, Ermənistanda heç də hamı Parisin istəklərini həlimliklə yerinə yetirməyə hazır deyil. Üstəlik, söhbət hakimiyyət və resursların əlində cəmləşdiyi ciddi dövlət məmurlarından gedir. Onlardan biri Ermənistan milli təhlükəsizlik xidmətinin direktoru, general-mayor Armen Abazyandır ki, o, ölkənin Fransanın protektoratına çevrilməsi ideyasını dəstəkləmir. Və burada Abazyanı milli təhlükəsizlik xidmətinin rəhbərliyindən uzaqlaşdırmaq üçün onu gözdən salmaq oyununa başlayan Fransa kəşfiyyatı işə düşür".

Saytın diplomatik mənbələrdən əldə etdiyi məlumata görə, Fransa xüsusi xidmət orqanı DGSE (Fransa Müdafiə Nazirliyinə tabe olan xarici siyasət və hərbi kəşfiyyatın birləşmiş xidməti) Abazyanı kənarlaşdırmaq planında baş nazir Paşinyanın ən yaxın adamlarının birinə, təhlükəsizlik şurasının katibi Armen Qriqoryana arxalanır: "Sonuncu, əlimizdə olan məlumatlara görə, Milli Təhlükəsizlik Xidmətinin rəhbərinə, sözün əsil mənasında, bıçaq zərbəsi endirir. Abazyan Ermənistanın bütün güc strukturlarını kurasiya etmək səlahiyyətinə malik olan Qriqoryanın rəhbərliyi altında "yatmaq" istəmir. Məhz buna görə də təhlükəsizlik şurasının katibi (yeri gəlmişkən, o, Paşinyanın ən kəskin tənqidçilərindən biri olan general-polkovnik Movses Akopyanın qardaşı oğludur) Fransa xüsusi xidmət orqanlarının oyununa qoşulub. Burada onların maraqları yüz faiz üst-üstə düşür. Fransa Ermənistanın əsas məxfi xidmətinə açıq frankofilin rəhbərlik etməsini, Qriqoryan isə ona tabe olmayan Abazyandan yaxa qurtarmaq istəyir".

Bilidirlir ki, amma Qriqoryanın marağı təkcə bunda deyil. Məsələ ondadır ki, Abazyan Paşinyana ölkənin durumu, xüsusən də regionda qüvvələr balansı və sair haqqında daha real məlumatlar verir və bu məlumatlar Paşinyanı revanşizmdən xeyli çəkindirir. Bu da öz növbəsində Fransanı və Azərbaycanın Qarabağ bölgəsindən olan Armen Qriqoryanı (Qriqoryan 1983-cü ildə Xocavənddə anadan olub) çox qıcıqlandırır. "Onların planı, özlərinə daha loyal olacaq öz adamını bu vəzifəyə qoymaqdır. Daha sonra milli təhlükəsizlik xidmətinin yeni rəhbərinin müxtəlif yazışmalar əsasında rəhbərliyi bölgədə yeni gərginlik yaratmaq üçün revanşistlərlə əməkdaşlığa sövq edə bilər ki, bu da Cənubi Qafqazda Parisə daha çox manevr imkanı verəcək", – deyə məqalədə qeyd olunur.

***

Aydın məsələdir ki, Qriqoryan bununla xüsusi xidmət orqanlarının inadkar rəhbərindən yaxa qurtaracaq. Baxmayaraq ki, Qarabağ ermənisi kimi, Qriqoryanın şəxsi revanşist motivlərinin də olması mümkündür. Amma Parisin son məqsədi, təbii ki, Abazyanın işdən çıxarılması ilə məhdudlaşmır. Fransa perspektivdə Ermənistanı regional istinad nöqtəsinə çevirmək üçün fəal işləyir. Ermənistanın Rusiya ilə çoxdankı və bir zamanlar dərin münasibətlərini nəzərə alsaq, Parisin ambisiyası "daşlar ölkəsi"ni regional kəşfiyyat bazasına çevirməkdir. Başqa sözlə, Fransa üçün Ermənistan Cənubi Qafqaz regionuna nüfuz etmək və möhkəmlənmək üçün yaşıl yoldur. Onu da nəzərə almaq lazımdır ki, ermənilər regional reallıqları yaxşı bilirlər və həm Rusiya cəmiyyətinə inteqrasiya ediblər, həm də regionun digər ölkələrində, o cümlədən Türkiyə və İranda məlumat toplamaq imkanına malikdirlər. Bu baxımdan İrəvan Fransanın kəşfiyyat fəaliyyətində effektiv resursa çevrilə bilər.

A.Abazyan isə öz mövqeyini qoruyub saxlaya bilsə də, ona qarşı daxili və xarici təzyiqlər artacaq. O, nəinki hələ də Paşinyanın yaxın adamlarından biri olaraq qalır, həm də sələflərindən – telefon dinləmələrində səhvə yol vermiş Artur Vanetsyandan, təcrübəsiz Arqişti Karamyandan və zəif iradəli Mikael Ambartsumyandan daha uzun müddətdir ki, postunu saxlayır. Onun Fransanın təzyiqinə davam gətirə biləcəyini, yoxsa DGSE – Armen Qriqoryan tandeminin oyununa qurban gedəcəyini zaman göstərəcək.

Onu da qeyd edək ki, A.Abazyan 2020-ci ilin oktyabrın 8-də Ermənistan milli təhlükəsizlik xidmətinin rəisi təyin edilib. O, bu vəzifədə Qarabağda döyüş əməliyyatları zamanı işdən çıxarılan 29 yaşlı Arqişti Karamyanı əvəz edib.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Fikrət SADIXOV, politoloq**

– Hazırkı Ermənistan hakimiyyətində müxtəlif meyilli qüvvələr cəmləşib. Bəziləri Rusiya meyillidir, digərləri Qərbpərəst. Belə təəssürat yaranır ki, bu vəziyyət Paşinyanı qane edir. Çünki Paşinyan bundan çox məharətlə istifadə edir və bu ikitirəliyi hər zaman öz xeyrinə yönəldə bilir. Hətta, bir sıra hallarda ziddiyyətli bəyanatlarla çıxış edir. Amma burada mürəkkəb məqam yarana bilər. Bu da öz-özlüyündə hakimiyyətin zəifləyəcəyi ehtimalıdır. Hakimiyyət zəifləsə, təbii ki, onu yıxmaq da çətin olmayacaq. Görünür, Paşinyan bunu o qədər də dərk etmir. Çünki onun nə təcrübəsi, nə də siyasi biliyi var. O, bu məsələdə naşıdır. Şübhə etmirəm ki, bütün bu ziddiyyətli mövqelər Paşinyan hökumətinin zəifləməsinə və aradan götürülməsinə münbit şərait yaradır.

# Heydər Əliyev və Azərbaycanın su təchizatı

**Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətini göz önünə gətirərkən onun müstəsna bacarığına heyran qalmaya bilmirsən: Bütün parametrlərdə çox böyük problemləri olan Azərbaycan Respublikasını bu keşməkeşlərdən, həm də uzun müddətli perspektivləri nəzərə alaraq necə çıxarda bilmişdir. Onun hələ Sovetlər Birliyi dövründə sənaye və kənd təsərrüfatı istiqamətində atdığı addımlar, tikdirdiyi fabrik və zavodlar məhz bu günlər üçün nəzərdə tutulmuşdur. Heydər Əliyevin respublikamız üçün gördüyü fundamental işlərdən biri də istər şəhər və qəsəbələrimizin, istərsə də kənd təsərrüfatının inkişafı üçün çox böyük ehtiyac duyduğu su probleminin həlli istiqamətində atdığı addımlardır.**



Azərbaycanda, o cümlədən, regionda su qıtlığı Naxçıvan Muxtar Respublikasında həmişə üzdə olmuşdur. Yerli su ehtiyatına görə respublikamızın Cənubi Qafqazda axırıncı yerdə olması, yəni illik su balansının cəmi 30 faizinin öz ərazimizdə formalaşması, 70 faizinin isə tranzit xarakter daşımasına görə, yeni suvarılacaq sahələrin dövriyyəyə verilməsi zamanı əlavə suvarma mənbələrinin aşkar edilməsi və ya yaradılması problemləri ortaya çıxmışdır.

Tipik dağlıq ərazi olan Naxçıvan MR-in yaşayış məntəqələrində vaxtı ilə çəkilmiş möhtəşəm kəhriz və kanallar əhalinin suya olan tələbatını qismən ödəmişdir. Bunlara Şərur rayonunda "Şahin Gəray" (Şangirey) suvarma kanallarını, Naxçıvan, Ordubad və digər şəhər və kəndlərdəki kəhrizləri göstərmək olar. Lakin torpaqların su çatışmazlığından dəmyə əkilməsi, xüsusən yayın ortalarında əhalinin içməli suya artan tələbatının ödənilməməsi, yenə də problem olaraq qalırdı. Bura əhalinin əkin sahələrinin, kommunal- iaşə müəssisələrinin, müxtəlif sənaye sahələrinin artımını da əlavə etsək, həm ölkədə, həm də muxtar respublikada suya olan tələbatın aktuallığı bir daha aydın olar.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövrlər ərzində onun bu aktual problem sahəsindəki fəaliyyətini təhlil etsək, onda ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması, təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması sahəsində ardıcıl, məqsədyönlü strategiyanın hazırlanması və həyata keçirilməsi istiqamətində fundamental işlərin görüldüyünün şahidi olarıq. Ulu öndərin planlı və elmi əsaslara istinad olunan ekoloji siyasəti nəticəsində yeni-yeni su anbarları, irriqasiya və meliorasiya sistemləri yaradıldı, minlərlə hektar şorlaşmış torpaqlarda, bataqlıqlaşmış və aşınmış ərazilərdə kultivasiya işləri aparıldı, yeni-yeni meşə zolaqları salındı, eyni zamanda, qoruq və yasaqlıqların sayı artırıldı.

Heydər Əliyevin rəhbərliyi ilə 1969–1982-ci illərdə Azərbaycanın su tələbatının ödənilməsi üçün geniş həcmli dövlət əhəmiyyətli işlər yerinə yetirildi: 1969-cu ildə "Ağstafaçay", 1970-ci ildə "Araz su qovşağı", 1976-cı ildə "Sərsəng", 1976-cı ildə "Yuxarı Xanbulançay", 1977-ci ildə "Arpaçay", 1980-cı ildə "Sirab", 1981-ci ildə "Şəmkir" və "Cəhriçay" və s. kimi su anbarları tikilib istifadəyə verilmişdir. Bu qısa zaman kəsiyində respublikamızda eləcə də muxtar respublikada inşa edilən sututarların ümumi həcmi 5,047 milyard kubmetr olmuşdur.

1969–1982-ci illərdə Azərbaycanda içməli su təchizatı sahəsində də böyük işlər görülmüşdür. 1970-ci ildə birinci növbə Kür–Abşeron su xətti, 1966–1978-ci illərdə isə Samur–Abşeron kanalı və "Ceyranbatan" su anbarı tikilib istifadəyə verilmişdir. Bütün bunlarla yanaşı, rayon mərkəzinə və kəndlərə 500 km uzunluğunda daxili su xətləri çəkilmişdir ki, bunun da 76,3 kilometri Naxçıvan MR ərazisində olmuşdur. Azərbaycan Respublikasında təbii ehtiyatlardan, xüsusilə tükənən və bərpa olunan ehtiyatlardan daha səmərəli istifadə olunması üçün yeni qanun və qərarlar qəbul edildi, onların icrasına nəzarət gücləndirildi. Bu illərdə görülən irimiqyaslı işləri həyata keçirmək üçün hüquqi baza yaradılmalı idi. Həmin dövrdə təbiətdən səmərəli istifadə və ətraf mühitin qorunması haqqında 8 mühüm qanun və 32 qərar qəbul edildi.

1977-ci ildə Kür çayı hövzəsinin su ehtiyatlarının mühafizəsi və kompleks istifadəsi ilə əlaqədar qəbul olunmuş qərar 1979-cu ildə üç yeni protokolla möhkəmləndirildi.

Ölkə rəhbərliyini düşündürən əsas problemlərdən biri də sututarların həcminin artırılması və yeni daha böyük tutumlu su anbarlarının tikintisi idi. Problemi həll etmək məqsədi ilə 1969-cu ildə su tutumuna görə respublikamızın dördüncü ən böyük, həcmi 565 mln. m3 olan "Tərtər" və həcmi 52 mln.m3 olan "Xanbulançay" su anbarlarının tikintisinə başlandı. Daha bir il keçməmiş sahəsinə görə ikinci və su tutumuna görə üçüncü böyük "Araz su qovşağı" su anbarının tikintisi başa çatdı. Araz çayı üzərində tikilən həcmi 1350 mln. m3-lik yeni su anbarı 100 min hektar susuz torpaqları suvarmaqla yanaşı, Naxçıvan MR-də elektrik enerjisinə olan tələbatının da müəyyən hissəsini ödəməyə imkan verdi. 42 min. kVt. saat elektrik hasil edən su anbarında Azərbaycanın ən böyük balıqçılıq vətəgələrindən biri fəaliyyətə başladı.

Su anbarı, eyni zamanda, çayın orta və aşağı axarlarında Ermənistanın sənaye, məişət, xüsusilə Metsamor Atom Elektrik Stansiyasının tullantıları hesabına yaranmış ekoloji gərginliyin qarşısını tullantıları özündə saxlamaqla almış oldu. Cəmi bir il sonra Arpaçay üzərində layihə həcmi 180 mln.m3 olan su anbarının inşası başa çatdırıldı və bir neçə il sonra, muxtar respublikada 30 min hektar torpaq əkin sahələrinə çevrildi. Eyni zamanda, 25 min hektardan artıq sahə yaşıllaşdırılma və lazımi miqdarda suvarılma imkanları qazandı. Həmin il "Akstafaçay" su anbarının inşası başa çatdırıldı və su anbarından ümumi uzunluğu 75,5 km-lik iki suvarma kanalı çəkildi.

1971-ci il ölkəmizi "Su intibahı" dövrü də adlandırmaq olar. Həmin il Araz çayının aşağı axarında "Bəhramtəpə" hidrotexniki qurğusu və uzunluğu 123 km olan Əzizbəyov suvarma kanalı Tərtər çayı üzərində eyni adlı su anbarından 25 km aşağıda, nisbətən kiçik "Madagiz" dəryaçası inşa edildi. Bakı şəhərinə Samur–Dəvəçi ovalığından üçüncü su kəməri çəkilməyə başlandı.

1973-cü ildə respublika rəhbərliyinin qərarları və birbaşa nəzarəti ilə Xanlar, Beyləqan, Ordubad, Şuşa, Zəngilan şəhərləri yeni su kəmərləri ilə təchiz edildi. "Ceyranbatan" su anbarının həcmini artırmaq üçün işlərə başlandı. 1974-cü ildə Naxçıvan və Laçın şəhərlərinə əlavə su kəməri çəkildi.

Keçən əsrin 70-ci illərinin mühüm hidrotexniki qurğularına 12 artezian quyusunun suyu ilə istifadəyə verilən Quba, dünyada indi də analoqu olmayan 32 km-lik Turşsu–Şuşa mineral su kəməri, üçpilləli Ceyrançöl nasos stansiyası, "Qahab" su anbarı, Girdimançay–Ağsu, Xaçmaz su magistralları istifadəyə verildi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP MK-nın həyata keçirdiyi tədbirlər nəticəsində 1970–1980-ci illər arasında, cəmi on il ərzində su anbarlarının ümumi tutumu 20 mld.m3-ə, suvarma kanallarının uzunluğu – 50 min km-ə, kollektor–drenaj şəbəkəsinin uzunluğu 18 min km-ə, su–nasos stansiyalarının sayı 700-ə çatdırıldı.

Ulu öndərin Azərbaycanda hakimiyyətinin ikinci dövründə – 1993-2003-cü illərdə su problemlərinin həlli məqsədilə görülən işlər yenidən geniş vüsət aldı. Paytaxtın su təchizatı sisteminin yenidən qurulmasına start verildi. İlk növbədə Böyükşor gölünə tökülən çirkabın qarşısı alındı, Kür çayında ekoloji gərginliyin azaldılması məqsədi ilə Milli proqram hazırlandı, Xəzər dənizinin mühafizəsi üçün "Xəzər fondu" yaradıldı, qədim və ənənəvi su təchizat sistemi olan kəhrizlərdə bərpa işləri başlandı, bəndi dağılmış "Qızılnohur" su anbarı bərpa edildi, Kürün daşması və su borularının dağılması nəticəsində su təminatını itirmiş Zərdab şəhərinin su kəməri yenidən quruldu, Yevlax rayonunda Bozdağ otlaqlarına su çıxarıldı, Azərbaycan Respublikasında "Su fondu" yaradıldı. Şərur şəhərinə yeni su xətti çəkildi, erməni işğalçıları tərəfindən dağıdılmış Horadiz su sistemi təzələndi...

Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə 270 min hektar yeni suvarılan torpaqlar hesabına kənd təsərrüfatına yararlı sahələr 1 milyon 450 min hektara çatdırıldı və 460 min hektar otlaq sahəsi su ilə təmin edildi. Bu dövrdə su problemlərinin həlli üçün su təsərrüfatı və meliorasiya sisteminə qoyulan pul vəsaitinin miqdarı Sovet hakimiyyətinin 50 ili ərzində respublikamıza qoyulan vəsaitdən 2 dəfə çox olmuşdur.

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən iqtisadi-siyasi xətt hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, yeni sututarlar, suvarma kanalları, ən başlıcası isə əhalinin içməli suya olan tələbatı ödənilir.

***Tariyel TALIBOV,***
***biologiya elmlər doktoru,***
***professor, AMEA-nın həqiqi üzvü,***
***Əməkdar elm xadimi***



# Zirvələr fəth edən lider

**"Heydər Əliyev İli" ilə əlaqədar YAP Goranboy rayon təşkilatı iyunun 24-də rayon Mədəniyyət Mərkəzində tədbir keçirib.**

YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov bildirib ki, Ümummilli lider Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir.

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev söyləyib ki, Ulu öndər Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova və başqaları Ulu öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyiblər.

***"Xalq qəzeti"***

# Ulu öndərin media dərsləri



**Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ulu öndər Heydər Əliyev və Azərbaycan jurnalistikası" mövzusunda dəyirmi masa keçirilib.**

Muxtar respublikanın media nümayəndələrinin iştirak etdiyi müzakirədə çıxış edən Naxçıvan MR Televiziya və Radio Şurasının sədri Rauf Əliyev, şuranın üzvü Sara Əzimova, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov, Mətbuat Şurasının üzvü Şəhla Şirəliyeva 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsini dahi şəxsiyyətə ümumxalq sevgisinin və indiki nəsillərin sonsuz ehtiramının ifadəsi kimi dəyərləndiriblər.

Qeyd olunub ki, bu gün Azərbaycanda Ulu öndərin siyasi irsini ən yüksək səviyyədə təbliğ edən, geniş kütləyə çatdıran media vasitələti sırasında muxtar respublikanın dövri nəşrləri və teleradio yayımları da ön sırada yer alır. Ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman milli jurnalistikamızın inkişaf tarixində yeni bir mərhələyə qapı açıb. Məhz bu sənədə əsasən media yayımı üzərində senzura ləğv edilib.

Bildirilib ki, Ulu öndər jurnalistlərə həmişə əhatəli qayğı göstərib, onların fəaliyyətini yüksəkqiymətləndirib. Buna görə də media ailəsi öz böyük himayədarını təntənəli surətdə "Jurnalistlərin dostu" adına layiq görüb. Həmçinin 2002-ci ildə Azərbaycan Respublikası Televiziya və Radio Şurasının, 2003-cü ildə jurnalistlərin I qurultayında Mətbuat Şurasının yaradılması medianın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Dəyirmi masada ulu öndərin media dərslərinə geniş nəzər salınıb.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

**Naxçıvan**

# Milli ordumuzun qurucusu



**Çağırış yaşlı gənclərin, Vətən müharibəsi veteranlarının və qazilərin iştirak etdikləri konfransda ulu öndər Heydər Əliyev və ərazi bütövlüyümüz uğrunda şəhid olan vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Tədbiri açan Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov iştirakçıları qarşıdan gələn 26 iyun Silahlı Qüvvələr Günü münasibəti təbrik edərək xoş arzularını çatdırıb. Sonra "Heydər Əliyev müasir Azərbaycan Ordusunun qurucusudur" mövzusunda məruzə edən şəhər rəhbəri bildirib ki, Azərbaycan Ordusu müasir, müstəqil dövlətimizin memarı və qurucusu olan ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi ilk dövrdən formalaşmışdır. Ulu öndər 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldikdən sonra onun müstəsna xidmətlərindən biri ölkəmizə hərbi kadrların hazırlanmasına verdiyi töhfələr olub. 1993-cü ilin yayında Ümummilli liderin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində mühüm addımlar atıldı.

Bu gün ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu siyasət nəticəsində ordumuz modernləşdirilmiş, dünyanın ən güclü orduları sırasına yüksəlmişdir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində yüksək texniki hazırlığa malik ordumuz sürətlə hərəkət edərək işğal altında olan torpaqlarımızı qısa vaxtda azad etdi.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti şəhər şöbəsinin rəisi Rövşən Məmmədov "Ordu quruculuğunda ulu öndər Heydər Əliyevin tarixi xidmətləri", Azərbaycan Qarabağ müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İctimai Birliyi Mingəçevir şəhər filialının sədri Əlağa Bəndəliyev "Birinci Qarabağ müharibəsi dövründə ordu quruculuğundakı çətinliklər", ehtiyatda olan mayor, qazi Pərviz Məmmədov "Müasir ordumuzda hərbi xidmətin təşkilində yeniliklər" mövzularında çıxış etmişlər.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

# Putin: Bu, silahlı qiyamdır

## Rusiya prezidentinə “öz adamı” silah çevirdi

**İndi dünyanın diqqəti Ukrayna cəbhəsindəki son vəziyyətə deyil, Rusiyanın daxilində baş verən dramatik xarakter almış silahlı qarşıdurmaya yönəlib. Xeyli müddət idi ki, Rusiyanın “Vaqner” Özəl Hərbi Şirkətinin (ÖHŞ) rəhbəri Yevgeni Priqojinlə Müdafiə naziri Sergey Şoyqu və Baş qərargah rəisi Valeri Gerasimov arasında qarşıdurma müşahidə olunurdu. Ekspertlərin ümumi qənaətinə görə, ötən gecədən Rusiyada başlanan qanlı olaylar məhz bu qarşıdurmanın nəticəsidir.**

Baxmayaraq ki, “vaqnerçilər” silahlı qiyamın səbəbi kimi nizami ordu birləşmələrinin şirkətin arxa düşərgələrinə raket zərbələri etdirməsini və bu zaman bir neçə döyüşçünün öldürülməsini göstərirlər. “Bu vəhşiliyə hansı formada cavab verəcəyimizi qərarlaşdıracağıq. Bundan sonrakı addımı biz atacağıq”. Bu, Priqojinin bombardmana reaksiyası idi.

### FTX və “SOBR” döyüşə hazır vəziyyətə gətirilib

Rusiyada Federal Təhlükəsizlik Xidməti (FTX) Moskva Departamentinin əməkdaşları həyəcan siqnalı ilə toplanıb, mərkəzi küçələrə hərbi texnikalar yeridilib. Bu barədə “Report” “BBC”nin Rusiya xidmətinə istinadən xəbər verir. Xüsusi xidmət orqanlarına və orduya yaxın mənbələr bildiriblər ki, Don şossesində (Moskva–Voronej–Rostov–Don) FTX “SOBR”ın dəstəyi ilə postlar qurub, məntəqələrdəki növbətçilərə təhlükə zamanı öldürmək üçün atəş açmaq əmri verilib. Bundan əlavə, Rusiya mətbuatı Moskvada təhlükəsizlik qüvvələrinin yüksək döyüş hazırlığı vəziyyətinə gətirildiyini, “Qala” planının da həyata keçirildiyini yazıb. Eyni zamanda, Daxili İşlər Nazirliyinin, Rusiya Qvardiyasının bütün heyəti döyüş hazırlığı vəziyyətinə gətirilib, Luqansk və Donetsk ilə sərhəddəki postlar gücləndirilib. Bundan başqa, Moskvada bütün mühüm dövlət energetika və nəqliyyat infrastrukturu obyektləri ciddi mühafizəyə götürülüb.

Yayılan məlumatlarda Priqojinin əsas hədəfi kimi Müdafiə naziri Şoyqu göstərilir. Amma bu, birmənalı şəkildə Prezident Vladimir Putinə qarşı silahlı qiyama işarədir. Putin isə dərhal hadisələri nəzarətə götürüb. Əvvəlcə Rusiya Milli Antiterror Komitəsi Priqojinin iddialarını əsassız adlandırıb və qanunsuz hərəkətlərin dərhal dayandırılmasını tələb edib. Sonra Federal Təhlükəsizlik Xidməti (FTX) onu silahlı üsyana çağırış maddəsi ilə cinayət işi qaldırıb. FTX bəyanatında “Vaqner” döyüşçülərini Priqojinin cinayətkar əmrlərini yerinə yetirməməyə, həmçinin onun saxlanılması üçün tədbirlər görməyə çağırıb. Rusiya hüquq-mühafizə orqanları da Priqojinin açıqlamalarını rus hərbçilərinin “kürəyinə vurulan bıçaq zərbəsi” adlandırıb. Bu arada sosial şəbəkələrdə “Vaqner”in komandirinin Rostovda Rusiya Müdafiə Nazirliyinin generalları ilə görüşünün videosu yayılıb. Videoda Priqojin əvvəlcə üzünə şərf dolayıb döyüşçülərin əhatəsində həyətdə gəzdiyi, az sonra skamyada oturub Rusiya Müdafiə nazirinin müavini, general-polkovnik Yunus-Bek Yevkurov və Baş qərargah rəisinin birinci müavini, general-leytenant Vladimir Alekseyevlə söhbəti öz əksini tapıb. Günün ikinci yarısında yayılan xəbərlərdə Rusiya ordusunun ölkənin Voronej vilayətində xüsusi döyüş əməliyyatına başladığı deyilirdi. Bu barədə açıqlama verən vilayətin qubernatoru Aleksandr Qusevin sözlərinə görə, ərazidə nizami ordu birləşmələri ilə “Vaqner” silahlıları arasında döyüş gedir.





### “İndi xalqımızın taleyi həll olunur”

Rusiya Prezidenti Vladimir Putin yaranmış vəziyyətlə bağlı silahlı qüvvələrə və vətəndaşlara müraciət edib. Dövlət başçısının çıxışı Kremlin rəsmi Telegram-kanalı vasitəsilə yayımlanıb. Rusiya lideri hadisələri xəyanət kimi qiymətləndirib: “Mən Rusiya vətəndaşlarına, hüquq-mühafizə orqanlarının əməkdaşlarına, xüsusi xidmət orqanlarının şəxsi heyətinə, döyüş bölgələrində vuruşan, düşmənin həmlələrini dəf edən qəhrəman əsgər və komandirlərə müraciət edirəm. Mən hiylə və avantüraya uyub kriminal hərəkətlərə, ağır cinayətə, silahlı qiyama sövq edilənlərə də üzümü tuturam. Bu gün Rusiya neonasistlərin və onların ağalarının təcavüzünü dəf edərək, öz gələcəyi üçün çətin mübarizə aparır. Qərbin, faktiki olaraq, bütün iqtisadi, hərbi, informasiya maşını bizə qarşı yönəlib. Biz xalqımızın həyatı və təhlükəsizliyi, suverenliyimiz və müstəqilliyimiz üçün mübarizə aparırıq.

Xalqımızın taleyinin həll olunduğu bu döyüş bütün qüvvələrin birləşməsini və məsuliyyətini tələb edir. Bizi zəiflədən hər şeyi kənara atmalı, xarici düşmənlərin bizi daxildən sarsıtmaq üçün istifadə edə biləcəyi fitnələrə uymamalıyıq”.

Çıxışının sonunda bu gün ölkədə yaranmış durumu 1917-ci il inqilabı ilə müqayisə edən V.Putin Birinci Dünya müharibəsində qələbənin Rusiyadan oğurlandığını, daxili çəkişmələrin, ordunun və xalqın arxasından aparılan siyasətin ən böyük sarsıntıya çevrildiyini, ordunun məhvi və dövlətin dağılması ilə müşayiət olunan geniş ərazilərin itirilməsi ilə nəticələndiyini bildirib. “Məhz bunların nəticəsində vətəndaş müharibəsi faciəsi baş verdi”, – deyə Putin xəbərdarlıq edib.

### Rusiya və Belarus liderləri son durumu müzakirə ediblər

Rusiya Prezidenti Vladimir Putinlə onun belaruslu həmkarı Aleksandr Lukaşenko arasında telefon danışığı olub. Bu barədə Putinin mətbuat xidmətindən məlumat verilib. Məlumatda qeyd olunub ki, tərəflər qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. Onlar ölkədəki son durum barədə fikir mübadiləsi aparıblar.

### “Ölkənin parçalanmasına yol verməyəcəyik”

Bunu Rusiyanın sabiq prezidenti, hazırda ölkənin Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev deyib. O, əhalini Rusiyanın dövlət başçısı Vladimir Putin ətrafında birləşməyə çağırıb: “Vaqner” silahlılarının ehtimal edilən qələbəsi Rusiyanı fəlakətə apara bilər. Qələbə isə Rusiyanın olacaq”.



### Voronejdə neft zavodu yanır

Yanğının səbəbi açıqlanmayıb. Daha əvvəl bildirilmişdi ki, burada Rusiya Silahlı Qüvvələri ilə “Vaqner” Özəl Hərbi Şirkəti arasında döyüşlər gedir. Bu, təsdiqlənməmiş məlumatdır.

### “Putin Kremldə iş başındadır”

Bu, Moskva vaxtı ilə saat 16:20-yə olan xəbərdir. Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov göyərtəsində Vladimir Putinin olduğu iddia edilən təyyarənin Sankt-Peterburqa uçması ilə bağlı iddiaları təkzib edib. “Report” TASS-a istinadən xəbər verir ki, daha əvvəl bəzi teleqram kanalları belə bir iddia ilə çıxış etmişdilər. “Putin Kremldə iş başındadır”, – D.Peskov TASS-a bildirib.

### Polislər “Vaqner” tərəfə keçiblər?

Rusiya Federasiyasında artıq onlarca təhlükəsizlik işçisi ölkənin hərbi rəhbərliyinə qarşı silahlı qiyam qaldıran “Vaqner” Özəl Hərbi Şirkətinin üzvlərini dəstəkləyib. Bunu Rusiyanın hərbi rəhbərliyinə qarşı qiyama başlayan “Vaqner” muzdlu döyüşçülərinin başçısı bildirib. Y. Priqojin deyib ki, artıq 60-70 asayiş keşikçisi “Vaqner” tərəfinə keçib. Onun sözlərinə görə, Rusiya ordusunun yarısı “Vaqner”i dəstəkləməyə hazırdır. “Hərbi rəhbərliyin döyüşçülərə yalan məlumat verdiyi yerlərdə döyüşlər gedir və buna görə də atışmalar baş verir. Əsgərlər bizi milli qvardiya və polislər qarşılayan yerdə sevinclə əllərini yelləyirlər. Deyirlər ki, sizinlə bir yerdə olmaq istəyirik. Artıq 60-70 nəfər bizə qoşulub. Baxmayaraq ki, biz yolun azını qət etmişik”,– deyə Priqojin bildirib. Xəbərlərdə bildirilir ki, Priqojin tərəfindən üsyana təhrik faktı ilə bağlı vəziyyətin ciddiliyi və Rusiya Federasiyasında qarşıdurmanın genişlənməsi təhlükəsi ilə əlaqədar ehtiyat tədbirlərin görülməsinə başlanıb.

### Moskvada antiterror əməliyyatı rejimi

Rusiya paytaxtında təhlükəsizliyin gücləndirilməsinə yönəlmiş antiterror tədbirləri həyata keçirilir. Bu barədə Moskva şəhər meri Sergey Sobyanin bəyan edib: “Yollarda əlavə nəzarət tətbiq edilib. Kütləvi tədbirlərin keçirilməsi məhdudlaşdırıla bilər. Xahiş edirəm, qəbul edilmiş tədbirlərə anlayışla yanaşın”. Son məlumatlara görə, Moskva çayı üzərində nəqliyyatın hərəkəti müvəqqəti dayandırılıb. Bununla bağlı yanlış xəbərlərə diqqəti çəkən S.Sobyanin bildirib: “Şəhərin giriş və çıxışlarında hərəkətin dayandırılması ilə bağlı bizə də məlumatlar daxil olur. Amma bu məlumatlar həqiqətə uyğun deyil. Yoxlamaların həyata keçirilməsi üçün tədbirlərin gücləndirilməsi ilə əlaqədar nəqliyyatın hərəkətində çətinliklər yarana bilər. Amma şəhərə giriş və çıxışda heç bir məhdudiyyət yoxdur”. “Caucasian Live” Teleqram kanalının məlumatında deyilir: “Moskvada artıq “Vaqner”lə döyüşə hazırlıq gedir, paytaxt ətrafında səngərlər qazılır”. Telekanal bununla bağlı video-kadrlar da paylaşıb.

### Priqojinin Putinə cavabı

“Vaqner” Özəl Hərbi Şirkətinin başçısı Yevgeni Priqojin Rusiya Prezidenti Vladimir Putinin video-müraciətinə reaksiya verib. “Heç kim Federal Təhlükəsizlik Xidmətinin başçısının təslim olmasını tələb etmir. Biz ölkənin korrupsiya içində yaşamasını istəmirik”, – deyən Y.Priqojin əlavə edib ki, Ukrayna ilə müharibə aparıldığı açıqlananda onlar vuruşublar: “Ancaq belə çıxır ki, hər şey oğurlanıb. İndi onlar mülki vətəndaşları vururlar, çünki içəri girə bilmirlər”. O, Rusiya Prezidentinin vətənə xəyanətlə bağlı fikrində yanıldığını söyləyib: “Biz öz vətənimizin vətənpərvərləriyik. İstəmirik ki, ölkədə hiylə, korrupsiya və bürokratiya hökm sürsün”. Priqojin Putinin təslim olmaq tələbini rədd edib: “Biz tabe olmayacağıq”.

### Hər 10 dəqiqədən bir Prezidentə məruzə edilir

“Müdafiə Nazirliyi, Federal Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi, Rusiya Qvardiyası Prezident Vladimir Putinə silahlı üsyan cəhdinə qarşı görülən tədbirlər barədə on dəqiqədən bir məruzə edirlər”. Bu barədə Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bildirib. Eyni zamanda, Moskvada təhlükəsizlik tədbirləri artırılıb və paytaxtın bütün ən mühüm – dövlət energetika və nəqliyyat infrastrukturu obyektləri ciddi mühafizəyə götürülüb.

“25 minlik ordu ilə Moskvaya doğru hərəkət edirik. Rostovda bizi qarşılayıb, qucaqladılar. Sona qədər gedirik. Biz uşaq qatili deyilik. Uşaq qatili Şoyqudur. O, 18 yaşlı uşaqları döyüş meydanına atır”. Bu açıqlamanı verən “Vaqner” Özəl Hərbi Şirkətinin başçısı Priqojin vurğulayıb ki, Rusiyanın Baş qərargah rəisi Valeri Gerasimov təyyarələri havaya qaldırmaq və mülki əhali arasında hərəkət edən kolona atəş açmaq əmrini verib: “Pilotlar əmrə tabe olmaqdan imtina ediblər. Ordu rəhbərləri üçün mülki vətəndaşları öldürmək heç nədir”. Bu arada ölkənin Xarici Kəşfiyyat Xidmətinin rəisi Sergey Narışkinin açıqlaması yayılıb: “Hazırda vətəndaş müharibəsi başlatmaq cəhdləri iflasa uğrayır”.

### Ərdoğan Putini dəstəklədi

Rusiya Prezidenti Vladimir Putinlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Kremlin yaydığı rəsmi məlumatda bildirilib ki, Rusiya Prezidenti ölkədə silahlı qiyama cəhdlə bağlı Türkiyə Prezidentini məlumatlandırıb. Telefon danışığında Rəcəb Tayyib Ərdoğan Rusiya rəhbərliyinə tam dəstək verdiyini bildirib.

### Moskva–Rostov yolu “betonlanıb”

TASS-ın yaydığı məlumata görə, “Vaqner”in hərbi texnikasından ibarət karvan Lipetsk vilayətinin ərazisində hərəkət edir. Vilayətin qubernatoru İqor Artamonov faktı təsdiqləyib. Onun sözlərinə görə, hüquq-mühafizə və regional hakimiyyət orqanları tərəfindən zəruri təhlükəsizlik tədbirləri görülür. “Report”un Rusiya bürosu xəbər verir ki, Moskvanın girişində Rostov istiqamətinə uzanan M-4 avtomobil yolunda hərbi texnika yerləşdirilib, beton maneələr quraşdırılıb. Hərbçilər və polis Rusiya paytaxtına gedən avtomobillərə baxış keçirir.

Silahlı qiyamın hansı sonluqla bitəcəyindən asılı olmayaraq, indidən birmənalı şəkildə deyə bilərik ki, bu, birbaşa Prezident Putinə qarşı yönəlib. Verilən son məlumatlardan belə nəticə hasil olur ki, artıq xəyanətkarların siyahısına düşən “Vaqner”in komandiri Priqojinin həbsinə və ya fiziki məhvinə hazırlıq görülür.

* * *

Belarus Prezidenti Aleksandr Lukaşenko “Vaqner” özəl hərbi şirkətinin rəhbəri Yevgeni Priqojinlə danışıqlar aparıb.

Bu barədə Belarus liderinin mətbuat xidmətinin “Telegram” kanalı məlumat yayıb. Xəbər verilir ki, Priqojin Lukaşenkonun “Vaqner” qüvvələrinin hərəkətini dayandırmaq təklifini qəbul edib.

Lukaşenkonun gərginliyi azaltmaq üçün addım atmaq təklifini də Priqojin müsbət qarşılayıb.

Həmçinin, bildirilib ki, Lukaşenko Rusiya Prezidentinin razılığı ilə Priqojinlə danışıqlar aparıb.

*Hazırladı:*
***İmran BƏDİRXANLI,***
*“Xalq qəzeti”*

# Dünyanın gözü Rusiyadadır

### Ağ ev vəziyyəti diqqətlə izləyir

ABŞ hakimiyyəti “Vaqner” Özəl Hərbi Şirkətinin başçısı Yevgeni Priqojinin bəyanatlarından sonra Rusiyadakı vəziyyəti diqqətlə izləyir. Dövlət katibi Antoni Blinken durumu “Böyük yeddilər”in xarici işlər nazirləri və Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrel ilə telefonla müzakirə edib. Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller danışıqların yekunlarına dair yazılı açıqlama verib: “Dövlət katibi Blinken Rusiyadakı mövcud vəziyyəti müzakirə etmək üçün bu gün Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Böyük Britaniya və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi ilə telefon danışıqları aparıb”.

### Londondan reaksiya

Böyük Britaniyanın Baş naziri Rişi Sunak da Rusiyada “Vaqner”in qiyamından danışıb. O, sözügedən məsələni gün ərzində müttəfiqlərlə müzakirə edəcəyini söyləyib. Böyük Britaniya Müdafiə Nazirliyi isə “Vaqner”in qiyamını Rusiya hakimiyyətinin ən ciddi problemi kimi qiymətləndirib. Bu barədə nazirlik kəşfiyyat məlumatlarına əsasən bildirib. “Vaqner”lə Rusiya Müdafiə Nazirliyi arasındakı gərginlik açıq hərbi qarşıdurmaya çevrilib: “Mövcud böhranın nəticəsi Rusiya təhlükəsizlik qüvvələrinin, o cümlədən Rusiya Milli Qvardiyasının fəaliyyətinin nəticəsindən asılıdır”.

### “Bu, ölkənin daxili işidir”

“Avropa İttifaqı Rusiyada baş verənləri diqqətlə izləyir”. Rusiyadakı silahlı qiyama münasibət bildirən Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel tviterdə bu sözləri yazıb. Rusiyada baş verən hadisələrin bu ölkənin daxili işi olduğunu vurğulayan cənab Mişel Kiyevlə bağlı fikirlərini belə ifadə edib: “Ukraynaya dəstəyimiz sarsılmazdır”.

### Astana da eyni mövqedədir

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Rusiyadakı olaylara baş verən hadisələri bu ölkənin daxili işi adlandırıb. “Tokayev qeyd edib ki, baş verən hadisələr Rusiyanın daxili işidir. Konstitusiya quruluşu və qanunun aliliyi ölkədə qanunun və asayişin qorunması üçün zəruri şərtdir, cəmiyyətin təhlükəsizliyinin və onun uğurlu inkişafının əsasıdır”. Bu barədə Qazaxıstan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Qeyd edək ki, bundan bir qədər əvvəl Rusiya Prezidenti Vladimir Putin Tokayevlə telefon danışığı aparıb və ona ölkədəki vəziyyət barədə məlumat verib.

### Narahatedici ssenari ilə üz-üzəyik

“Rusiyada qeyri-sabitlik artır. Bu, bütün region üçün təhlükədir”. Bu sözləri İsveçin sabiq xarici işlər naziri Ann Linde özünün tviter səhifəsində yazıb. Onun sözlərinə görə, Rusiyada vəziyyət narahatedici ssenari üzrə inkişaf edir.

### “Vaqner”in şansı yoxdur

“Priqojinin bəzi yerlərdə məhdud qüvvəsi və gücü var. Kreml bu məhdud qüvvəyə qarşı birləşə, məncə, “Vaqner”in şansı olmayacaq. Bu, sadəcə daxili siyasi böhran deyil, həm də Rusiya ərazisində hərbi əməliyyatlara səbəb ola biləcək böhrandır”. Bunu Bolqarıstan Prezidenti Rumen Radev deyib. O, həmçinin daxil olan məlumatların məhdudluğu səbəbindən baş verənlərin miqyasını müəyyən etməyin çətin olduğunu qeyd edib.

# Kənd tərəqqinin önəmli cəbhəsidir

**Son illər ölkəmizdə ərzaq təhlükəsizliyi həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. Qlobal bazarlarda baş verən hadisələr isə bu amilə diqqəti daha da gücləndirib, bir sıra zəruri məhsullarla özünütəminetmə səviyyəsinin yüksəldilməsi üçün görülən davamlı tədbirlərlə bərabər, yeni yanaşmalardan da istifadəni önə çıxarıb.**

Dövlətimizin başçısı tərəfindən qəbul edilən müvafiq qərarlara uyğun olaraq kənd təsərrüfatının inkişafı məqsədilə qurulan çoxşaxəli dövlət dəstəyi sistemi mütəmadi olaraq təkmilləşdirilir, yeni mexanizmlər işlənib hazırlanır, ayrı-ayrı istiqamətlər üzrə həyata keçirilən genişmiqyaslı layihələrlə bu sahənin potensialı gücləndirilir. Belə bir şəraitdə isə, təbii ki, kənd təsərrüfatı məhsulları istehsalının dinamik artımı aydın nəzərə çarpır. Bütün bunların ifadəsi statistik göstəricilərdə də diqqət çəkir. Belə ki, təkcə cari ilin yanvar-may ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3 milyard 116 milyon manat təşkil edib. Bu məbləğin 2 milyard 372,3 milyon manatı heyvandarlıq, 743,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.



Yeri gəlmişkən, aqrar sektorda məhsul istehsalının artımında meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi xüsusi rol oynayıb. Xatırladaq ki, bu məqsədlə dövlət büdcəsi vəsaiti hesabına reallaşdlrılan böyük miqyaslı layihələrin icrası nəticəsində son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı 5 faizdən çox artıb.

Artıq ölkədə kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi ilə bağlı çoxsaylı təcrübələr də mövcuddur. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi-tədqiqat institutları tərəfindən təcrübə xarakterli, özəl şirkətlər tərəfindən isə kommersiya məqsədilə torpaq və su sensorları, "ağıllı" suvarma sistemləri, aqrodronlar, aqrorobotlar, "dəqiq" əkin texnologiyaları tətbiq olunur.

Fermerlərin gübrə, pestisid və kənd təsərrüfatı texnikası ilə təminatının yaxşılaşdırılması üçün göstərilən dövlət dəstəyi tədbirləri də öz müsbət nəticələrini verib. Kənd təsərrüfatı üzrə texnika parkının genişləndirilməsi hesabına artıq bir traktora düşən əkin sahəsi 45 hektar, bir taxılyığan kombayna düşən əkin sahəsi 269 hektar, bir pambıqyığan kombayna düşən əkin sahəsi isə 203 hektar təşkil edib. Bu da ölkədə kənd təsərrüfatı texnikası ilə təminatın kifayət qədər yüksək olmasını xarakterizə edən göstərici kimi diqqət çəkir.

Burada ən mühüm məsələlərdən biri də kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun təkmilləşdirilməsidir. Başqa sözlə, ölkədə nəzərdə tutulan həcmdə istehsal oluna bilməyən buğda, şəkər və bitki yağları xammalı və s. məhsullar daha əlverişli şərtlərlə idxal olunaraq ehtiyatlar yaradılır, emal olunur və hətta ixrac edilir. Dövlət dəstəyi hesabına regionlarda 400 min ton tutumlu soyuducu anbarlar, 1,9 milyon ton tutumlu müasir taxıl elevatorları və digər logistika obyektlərinin istifadəyə verilməsi bunun bariz ifadəsidir.

Aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması, səmərəliliyinin və şəffaflığının artırılması, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədilə institusional islahatların icrası da diqqət mərkəzində saxlanılıb. "Elektron kənd təsərrüfatı" informasiya sisteminin tətbiq edilməsinə başlanılıb, 2020-ci ildən başlayaraq bitkiçilik və heyvandarlıq sahəsində fermerlərə subsidiyaların alternativsiz olaraq adıçəkilən sistem vasitəsilə verilməsi təmin edilib.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət qayğısı ilə əhatə olunması bütün əsas istiqamətlərdə irəliləyişlərə yol açıb. Son 10 il ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 4,8 faiz (o cümlədən, bitkiçilik məhsulları istehsalı 53 faiz, heyvandarlıq məhsulları istehsalı 42,5 faiz) artıb. Bu dövr ərzində kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac həcmi təqribən 26,9 faiz yüksəlib ki, bu da xüsusilə ilkin kənd təsərrüfatı məhsullarının ixrac həcminin bir neçə dəfə çoxalması hesabına baş verib.

Ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir. Bitkiçilik sahəsinə aid olan taxılçılıq aqrar sektorun əsasını təşkil edərək əhalinin çörək və çörək məmulatlarına tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın yemlə təminatında mühüm rol oynayır. Ona görə də taxılçılıq təsərrüfatının inkişafı prioritet istiqamətdir.

Yeri gəlmişkən, Azərbaycanda 2022-2023-cü təsərrüfat ilində 1 milyon 44 min 700 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Dən üçün payızlıq əkinlərin sahəsi 2021-2022-ci təsərrüfat ili ilə müqayisədə 2,8 faiz çox olub. Payızlıq taxıl əkinlərinin 649,2 min hektarını buğda, 395,3 min hektarını arpa əkinləri, 160 hektarını çovdar əkinləri təşkil edib. Bundan əlavə, ölkədə 14 min hektar sahədə xəsil və yaşıl yem üçün əkinlər aparılıb. Ötən təsərrüfat ili ilə müqayisədə ölkədə buğda əkinlərinin sahəsi 7,8 faiz artıb. Payızlıq taxıl əkinləri Azərbaycanın əkin balansının 60 faizə yaxınını təşkil edib.

Azad olunmuş torpaqlarda kənd təsərrüfatının bərpası ilə bağlı mühüm önəm daşıyan bir məsələyə də toxunmaq istərdik. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən torpaqlarımızın işğaldan azad olunması respublikamızda kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar yaradıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Prezidentinin 2021-ci il 27 aprel tarixli fərmanının icrası çərçivəsində ərazilərin minalardan təmizlənməsi prosesinə paralel olaraq kənd təsərrüfatı əkinlərinin həyata keçirilməsi işlərinə başlanılıb. Artıq on min hektarlarla torpaq sahələri əkinə cəlb edilib, Kəlbəcər və Laçın rayonlarının yaylaqlarına arı ailələrinin, qoyunçuluq təsərrüfatlarının köçürülməsi gerçəkləşdirilib.

Mütəxəssislər işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpası nəticəsində taxıl və yem bitkiləri, həmçinin heyvandarlıq məhsulları istehsalında artımın təmin ediləcəyini bildirirlər. Eyni zamanda, bu ərazilər hesabına ümumi taxıl məhsulları istehsalını təqribən 400 min tona, ət istehsalını 45 min tona və süd istehsalını 240 min tona çatdırmağın mümkünlüyü vurğulanır.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

# Köhnə avtomobillərlə bağlı yeni şərtlər

**Köhnə, istifadəyə yararsız avtomobillər getdikcə müasirləşən yollarımızın estetik görünüşünə xələl gətirməklə yanaşı, ekoloji tarazlığın pozulmasına, eləcə də yol-nəqliyyat hadisələrinin artmasına səbəb olur. Son araşdırmalara görə, Azərbaycanda istismar olunan avtomobillərin 80 faizindən çoxunun istehsal tarixi 10 ili ötüb. Hətta bu gün ölkənin avtomobil yollarında ötən əsrin 70-80-ci illərində istehsal olunmuş nəqliyyat vasitələrinə də rast gəlmək mümkündür. Bütövlükdə isə, hazırda Azərbaycanda hər 20 avtomobildən biri həddindən artıq köhnəldiyindən istismara yararsız hesab olunur.**

Yeri gəlmişkən, 2016-cı ildə Paris İqlim Sazişinə qoşulan Azərbaycan Respublikası 2030-cu ilə qədər istixana qazlarının emissiyalarının səviyyəsinin 35 faiz azaldılmasını qarşıya mühüm hədəf kimi qoyub. Bu məqsədə çatmağın yollarından biri isə, heç şübhəsiz, ölkənin nəqliyyat parkının yenilənməsi, ekoloji cəhətdən təmiz avtomobillərin sayının artırılmasına nail olmaqdan ibarətdir. Bundan əlavə, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi cəhətdən köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılmasına dair tədbirlərin görülməsi qeyd olunur. Bu baxımdan ölkəmizdə köhnə avtomobillərin utilizasiyası da xüsusi aktuallıq kəsb edir.



### Ekspert rəyi



**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert**

Qanuna edilən dəyişiklikdən göründüyü kimi, utilizasiya haqqı yeni avtomobillərə aid deyil. Bu, əsasən, istehsal tarixi 4 ildən artıq olan avtomobillərə şamil edilir. Burda bir məqam da diqqəti cəlb edir ki, utilizasiya haqqı utilizasiya fondu üçün yığılır. Yaxın vaxtlarda sözügedən fond təşkil olunaraq onun tərkibi, nizamnaməsi təsdiq edilməlidir ki, utilizasiya haqqını toplamaq mümkün olsun. Həm də fondun bir statusu, hansı formada fəaliyyət göstərəcəyi, yığılan vəsaitlərin hansı istiqamətdə xərclənəcəyi də müəyyən olunmalıdır.

Düşünürəm ki, bütün bu proseslərlə yanaşı, ölkəmizdə utilizasiya sənayesi də yaradılacaq. Utilizasiya proqramı Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafa dair strategiya çərçivəsində həyata keçiriləcək. Bu isə 2022-2026-cı illəri əhatə edir. Bəzən vətəndaşlarda çaşqınlıq yaranır ki, artıq dəyişikliklər təsdiqlənən kimi dərhal utilizasiya prosesinə başlanılacaq. Amma bu belə deyil. Qeyd etdiyimiz kimi, proses fondun təşkili, utilizasiya sənayesinin yaradılmasından sonra həyata keçiriləcək.

Dövlət utilizasiya layihəsinin həyata keçirilməsinə biznesi də cəlb edəcək. Yəni, biznes avtomobillərin utilizasiyasını həyata keçirən bir qurum kimi iştirak edəcək. Bundan əlavə, dövlət ölkəmizdə rəsmi diler və distibutorlar tərəfindən avtomobilini könüllü olaraq utilizasiyaya verən vətəndaşlar üçün müəyyən endirimlərin də alınmasını qarşıya məcburi şəkildə qoyur. Belə ki, diler və distibutorlar avtomobilini utilizasiyaya verən vətəndaşa yeni avtomobil alarkən endirim etməlidir. Buna əməl etməyənlər isə cərimələnəcəklər. Bununla yanaşı, qeyd etmək lazımdır ki, dəyişikliklərdə avtomobil almaq istəyən vətəndaşa distibutor tərəfindən ediləcək güzəştin və endirimin məbləği və faizi göstərilmir. Biz təklif edərdik ki, ölkəyə idxal olunan yeni avtomobillər (mühərrik həcmi 2 min kubsantimetrə qədər olan avtomobillər) gömrükdə əlavə dəyər vergisindən azad edilə və ya avtomobilin mühərrik həcminə görə alınan aksiz vergiləri ləğv oluna bilər. Bu da rəsmi dilerə bunun müqabilində yeni avtomobil almaq istəyən vətəndaşa həmin məbləğ dəyərində güzəşt etməyə imkan verəcək. Yəni dövlət yeni avtomobillərin idxalı zamanı öz payına düşən, ona gələn əlavə dəyər vergisindən imtina edir. Bunun müqabilində isə həmin o faiz ekvivalentində endirimi rəsmi diler vətəndaşa güzəştə gedir.

Dünya ölkələrində utilizasiya prosesi fərqli şəkildə aparılır. Bəzi ölkələrdə avtomobil idxal olunan zaman utilizasiya haqqı tutulursa, digərlərində vətəndaş utilizasiya zamanı ödəniş edir. Azərbaycanda isə avtomobil ölkəyə idxal olunduqda və texniki baxışdan keçdikdə utilizasiya haqqı yığılacaq. Buna görə də vətəndaş avtomobilini utilizasiyaya göndərən zaman hər hansı vəsait ödəməyəcək.

Artıq Azərbaycanda köhnə, istismara yararsız nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı şərtlər müəyyən edilib. Həmin şərtlər Milli Məclisin dünən keçirilən iclasında təsdiqlənmiş "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişiklikdə əksini tapıb. Dəyişikliyə əsasən, Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi, həmçinin nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi zamanı nəqliyyat vasitələrinin utilizasiyası fonduna utilizasiya haqqı ödənilir. Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqının bəyannaməçilər tərəfindən ödənilməsi gömrük orqanları tərəfindən təmin edilir.

Dövlət texniki baxışı üzrə utilizasiya haqqı isə nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI hissəsində nəzərdə tutulan müddətlərdə texniki baxışa faktiki təqdim olunan vaxt ödənilir.

Dəyişikliyə görə, utilizasiya haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitəsinin istehsal-buraxılış ili üzrə müəyyən edilir.

Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini bu Qanunun 14-4-cü və 14-5-ci maddələrində nəzərdə tutulan reyestrdə qeydiyyata alınmış şəxslər, yəni utilizatorlar və digər şəxslər həyata keçirə bilər.

Utilizasiyaya verilmiş nəqliyyat vasitələri ilə bağlı bu Qanunun 14-7-ci və 14-8-ci maddələrinin tələbləri nəzərə alınmaqla, utilizatorlar tərəfindən özündə güzəştin məbləğini və birdəfəlik ödənişin həcmini əks etdirən təsdiqedici sənəd verilir. Utilizatorlar tərəfindən nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu növbəlilik qaydasında və ödənişsiz həyata keçirilir.

Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri təsdiqedici sənəd təhvil verilməklə satın alındıqda nəqliyyat vasitələrinin satıcıları tərəfindən güzəşt tətbiq edilir. Güzəştin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyən edilir.

Qeyd edək ki, köhnə avtomobillərin utilizasiyası ilə bağlı şərtlər 2024-cü il sentyabrın 1-dən qüvvəyə minəcək. Bu isə o deməkdir ki, gələn ildən etibarən ölkəmizin nəqliyyat parkı köhnə avtomobillərdən tədricən xilas olmağa başlayacaq.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# "Balakən" gəmi-bərəsi Xəzərə qayıdıb




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyatı Donanmasına məxsus "Balakən" gəmi-bərəsi əsaslı təmir edilib.**

Gəmiçilikdən verilən məlumata görə, Zığ gəmi təmiri və tikintisi zavodunda gəmi-bərənin baş və köməkçi mühərrikləri, nasos və soyuducuları əsaslı təmir edilib. Gəminin köməkçi buxar qazanında və köməkçi qazanında zəruri işlər yerinə yetirilib. Gəmi üzrə gövdə qaynaq, boruquraşdırma, avtomatika işləri görülüb, elektrik avadanlıqları təmir olunub, yeni kompressorlar quraşdırılıb.

Rabitə və elektroradionaviqasiya sahəsinə aid müasir, yeni tip "İnmarsat-C" peyk rabitə stansiyası, radiolokasiya cavabvericiləri, avtomatik identifikasiya sistemi və radiolokasiya stansiyaları quraşdırılıb. Bundan əlavə, gəmi-bərənin yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir edilib, yeni mebellər quraşdırılıb.

Təmir işləri çərçivəsində, həmçinin gəmi-bərənin sualtı və suüstü hissəsi, baş göyərtəsi də təmizlənərək rənglənib. İşlər başa çatdırıldıqdan sonra gəmi üzrə dəniz-sınaq yoxlaması həyata keçirilib. Sınaq işləri uğurla başa çatıb.

Qeyd edək ki, uzunluğu 154,5 metr, eni isə 17 metr olan "Balakən" gəmi-bərəsinin maksimal sürəti 13,9 uzeldir. Bərənin göyərtəsinə 54 vaqon yükləmək mümkündür.

***"Xalq qəzeti"***

# TRACECA dəhlizində pilot daşınma

**Litva–Polşa–Slovakiya–Macarıstan–Rumıniya–Bolqarıstan–Qara dəniz–Gürcüstan–Azərbaycan–Xəzər dənizi–Qazaxıstan multimodal marşrutu üzrə yüklərin yarımqoşqu ilə pilot daşınması həyata keçirilib. Daşınma 16 gün ərzində tamamlanıb.**

TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin yaydığı məlumata əsasən, bu daşıma Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan və Litvanın nəqliyyat nazirliklərinin dəstəyi, habelə gömrük orqanlarının və Varna, Batumi, Bakı və Kurık dəniz limanlarının iştirakı ilə mümkün olub.

Yarımqoşqu ilə yüklərin daşınması ideyası yaxın vaxtlarda bütün TRACECA ölkələrinə təklif ediləcək.

***"Xalq qəzeti"***

# Yükdaşımalar artıb

**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-may aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 736 milyon 871 min ABŞ dolları dəyərində 1 milyon 132 min 706 ton yük daşınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 93,9 faiz və 4 dəfə çoxdur.**



5 ay ərzində dəniz nəqliyyatı ilə ixrac olunan 66 milyon 51 min ABŞ dolları dəyərində 30 min 484 ton yük ixrac, 670 milyon 820 min ABŞ dolları dəyərində 1 milyon 102 min 221 ton yük isə idxal olunub.

Son 1 ildə ixrac olunan yükün dəyəri 3 dəfə, həcmi 23 faiz, idxal olunan yükün isə dəyəri 87,1 faiz, həcmi 4,2 dəfə artıb.

# Bakı və Abşeronun dəmir yolları təmir edilir



**Keşlə stansiyasının 4-cü və 5-ci yan yollarında əsaslı təmir işləri başa çatdırılıb. Bu ilin sonunadək isə Bakı və Abşeron şəhərətrafı xətlərində 48 kilometr yol əsaslı təmir ediləcək.**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin məlumatına görə, bu yollarla hər ay 550 min ton neft və yanacaq məhsulları daşınır. Hazırda Suraxanı-Yeni Suraxanı, Yeni Suraxanı-Hövsan və Əhmədli yeni neft emalı zavodu dəmir yolu xətlərində təmir işləri davam etdirilir.

***"Xalq qəzeti"***

Dostluq və qardaşlıq çevrəsində

# Turan sevdasından Türk dövlətləri birliyinə

(əvvəli 1-ci səhifədə)

– Bir zamanlar çox görmək istədiyimiz, burnumuzun ucu göynəyən türk ellərinə getmək üçün hansı hissləri keçirdiyimizi söyləmək çox çətindir. Stalinin ölümündən sonra mədəni əlaqələrin qurulması, sovetlərə gəlmək xeyli asanlaşsa da, bir çox çətinliklər uzun illər qaldı və sovetlər dağılana kimi davam etdi. O illərdə sovetlərə səfər və qazax, özbək, azərbaycanlı, türk-



mən, qırğız qardaşlarımızla görüşmək mənə də nəsib oldu. Amma səfərlərin marşrutunu Moskvadan keçirdi və kimin haraya getmək məsələsini də Moskva həll edirdi.

Açıq deyim ki,Türkiyədən gəlmiş bütün nümayəndə heyətlərinin Azərbaycana səfərlərinə elə bir etiraz olmurdu, 60-cı illərdən başlayan ilk səfərlərdən sonra da Azərbaycana gəlmək-getmək hər halda mümkün idi. Amma digər türk respublikaları bura aid edilə bilməz. Mənin özüm də belə bir qadağa ilə üzləşmişdim. 80-ci illərin əvvəllərində Moskva mənə Türkmənistana getməyə icazə verməmişdi, səbəb də soyadımı göstərmişdilər. Nə düşüncə, nə təfəkkür idi? Bu gün də anlaya bilmirəm. Halbuki, "Türkmən" soyadımın Türkmənistanla yada gələn, ortada olan bir əlaqəsi yox idi. Bunun heç fərqində belə olmamışam. Ola bilsin ki, ulu babalarımın doğulduğum Yozqat vilayətinə gəlişindən öncə Türkmənistanla hansısa əlaqələri olubmuş.

**– Türkmənistana səfəriniz nə vaxt alındı?**

– Nəhayət ki, 1984-cü ildə Türkmənistana səfər edə bildim. Bu, Türkmənistana ilk səfərim oldu. Görüşdüyüm adamlar, xüsusən də uşaqlar Türkmən soyadını eşidən kimi elə bir sevinc hissi keçirirdilər ki, mən özüm çaşırdım. Uşaqlar səs-səsə verib soyadımı ucadan deyərək şadyanalıq edirdilər. Adamlar, sanki, çox doğma və əziz bir adamı ilə qarşılaşmışdılar. Nə qədər təəccüblü görünsə də, bu mənim üçün çox doğma və başadüşüləndir. Çünki insan övladı doğulduğu gündən həmişə qarşısındakı adamlarda bir doğmalıq axtarıb, onu tapanda, sanki, həyatı yenidən başlanıb.

Çünki könül verib bağlandığın, vurulduğun bir şeyin fövqəl bir doğmalığı var. Bir misal çəkim, ilk dəfə olduğunuz bir ölkədə qaldığınız hoteli yada salın. Bir müddət sonra oraya dönəndə yenidən o hoteli axtarırsan, onun çevrəsində qalmaq istəyirsən. Qarşılaşdığım adamları sevindirən də hesab edirəm ki, qan yaddaşından gələn bir doğmalıq idi. Mən bunun başqa bir cavabını nə qədər axtarsam da, başqa cür anlaya bilmirəm, ona görə də başqa cür anlada da bilmirəm. Mən türkmənlərdə doğmalığı gördüyüm kimi, onlar da eyni hissi keçirirdilər.

**– Əslində, bizləri bir-birinə bağlayan köklər, adətlər, din və dil birliyi ilə yanaşı, həmin genetik yaddaş da var.**

– Bəli, bizləri bir birimizə bağlayan o qədər köklər, tellər var ki, onlardan ayrılmaq mümkün deyil. Adətlər, ənənələr, tarixi bağlılıq, hətta sözlər və kəlmələr bu bağlılığı özündə elə yaşadır ki, sən ayrılmaq istəsən belə, qopa bilmirsən. Çünki bizləri bir-birimizə bağlayan bu çazibədən çıxa bilmirik. Baxın, haqqında danışdığımız bu birlik – yaxın və ortaq tariximiz, mədəniyyətimiz, məişətimiz, sözlərimiz... bunların hamısının toplamı Turandır. Bunları əsaslandıran o qədər saysız-hesabsız misallar var ki, günlərlə danışsan bitəsi deyil və bunlar bu birliyin – Turan eləminin təməli və təntənəsidir.

Bütün Türk dünyasının hər yerində bu bağlılığı görürsən. Gedin, bizə məsafəcə ən uzağı olan yakut-saxlara, orada da bunu görəcəksən. Təməlləri arayanda hər şeyi apaydın görə bilirsən. Yenə bir misala üz tutaq: böyüklərimizdə belə bir inam olub ki, dədə-babaların adını yeni doğulan övladlara verməklə həm onları yaşatmış olursan, həm də nəslin yeni üzvünü adını qoyduğun insan kimi görmək istəyirsən. Ona görə bunu əks etdirən mərasimlər keçirilmiş, hətta azan oxunmuş ki, sən müsəlmansan, övladım. Bu, əslində, adla şəxsiyyət arasında qurulan əlaqədir. Bizlərə də köklərimizdən gələn tarixi mirasdır.

**– Haqlısız, ad vermək həm də yeni doğulana bir kimlik proqramı vermək kimi anlaşılıb: səni adını verdiyimiz insan kimi görmək istəyirik...**

– Ad veriləndə, həqiqətən, şəxsiyyətlə bir əlaqə qurulmuş, adı verilənin igidliyi, qeyrəti, vətənpərvərliyi və digər dəyərli xüsusiyyətləri nəzərə alınırmış. Yaxud birinin yeni doğulan övladı qalmayanda növbəti övlada hələ doğulmamış Yaşar, Dursun, Durmuş kimi adlar qoyurmuşlar. Digər birinin dalbadal qızı olanda oğlan istəyirmiş, son doğulan qıza nə ad verirmişlər? Sizdə də var bu: Yetər, Qızyetər, Bəsti...

Baxın Turan fikri budur. Hesab edirəm ki, siyasi sərhədlərimizin bir olması önəmli deyil, hətta belə olanda bəzi fikir ayrılıqları da ortaya gələ bilər. Onun üçün də fikir və məslək birliyinə xüsusi önəm verilməlidir. Mən türk dünyasının inkişafında gənclərin qoyulmasında, istərsə də yüksəlişində Azərbaycan–Türkiyə münasibətlərinin xüsusi önəmi vardır. Əbəs yerə deyil ki, bu birlik əvəzi olmayan hadisə kimi dəyərləndirilməkdədir. Azərbaycan və Türkiyə əlaqələrinin bütün sahələrdə yüksək səviyyəyə çatdırılması digər Türk dövlətləri üçün də yol xəritəsi, örnək rolunu oynayır.

Avropa və Asiyanı əhatə edən Türk dövlətləri böyük iqtisadi və siyasi potensiala sahibdir. Müasir dövrün reallıqları göstərir ki, Türk dünyası birgə addımlamalı, birlikdə böyüyüb, inkişaf etməli, əngəllərə qarşı birgə mübarizə aparmalıdırlar. Eyni zamanda, heç də təsadüfi deyil ki, Türk dünyasının böyük oğlu Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir. O, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini də dönə-dönə dəyərləndirmiş, onu "XX əsrin bəşəriyyətə verdiyi böyük dühа"lardan saymışdır.

**– Qırğızıstan səfərinizi xatırlatmaqla türk qardaşlarımızın dediyi bir fikiri də yada saldınız: qızıl soyumuzun məskəni Türküstandır.**




bir-birini yaxından tanımasını, hətta onların evlənib ailə qurmasını daha böyük və sarsılmaz bağlılıq kimi görürəm. Çünki hər bir evlilik təkcə iki insanı, iki ailəni yox, həm də ulusları bağlayır.

Ona görə də Turan fikrindən böyük gözləntim var. Bilirsiniz ki, Turan böyük bir coğrafiyadır, həm də türklərin məskunlaşdığı geniş coğrafiyadır. Türklər dünyada ən geniş coğrafiyada yayılan millətlərdəndir, bəlkə də, birincisidir. Bu böyük coğrafiyanı isə, canımızda mayası, ruhumuzda cazibəsi olan mənəvi bağlar ortaqlaşdırmalıdır.

**– Dünyada qloballaşmadan danışılır, amma hər kəsə doğma olan gerçək də var. Bu duyğu-düşüncələr ümumən eyni, ayrılıqda özəldir. Türklərdə necə?**

– Bir məsələni də xatırladım, ümumən, insan xislətində içəridən gələn bir hiss də var. Bir də hər kəsin doğma və əziz bildiyi nələrsə var. Ola bilsin, qeyri-birisinə bu təəccüblü görünə bilər. Mən sovet dövründə uzun illər türk məmləkətlərinə gəlirdim və hər dəfə də Moskvadan keçirdim. Moskvaya hər gəlişimdə də ya Azərbaycan, ya da özbək mətbəxi olan restoranlar axtarırdım. Açığı, özüm üçün önəmli bildiyim və ciddi hesab etdiyim səbəblər vardı. Birincisi, yeməklər bizimki kimi idi: dadlı, ləzzətli. İkincisi, orada məni rahat anlayırdılar, rahatca, heç bir tərcüməçi-filan olmadan çörək, su istəyirdim. Üçüncüsü, mən xeyrimi niyə özgəsinə verməli idim? Qoy bir az baha olsun, amma özümünkü qazansın. Bu səbəblərin hər birinin başında anlaşa bilmək, bir olmaq fəlsəfəsi dayanır. Hesab edirəm ki, bu da Turan məslәkidir.

**– Azərbaycan və Türkiyə münasibətlərinin bu anlamda xüsusi yeri var. Ulu öndər Heydər Əliyev "Bir millət, iki dövlət" deyəndə də bu fikiri nəzərdə tuturdu.**

– İllər öncə qarlı-çovğunlu bir gündə Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin başçılıq etdiyi nümayəndə heyəti ilə Qırğızıstana getmişdik. Bizi çox böyük qonaqpərvərliklə qarşıladılar. O dönəmin qırğız prezidenti səmimi bir xoşgəldin nitqi söylədi. Dedikləri indiki kimi qulaqlarımdadır: "Buradan qıyıq gözlərlə getdiniz, açıq gözlə döndünüz. Atları minib getdiniz, təyyarələrlə geri qayıtdınız. Amma fərq etməz, yenə də siz bizsiniz, biz sizik!"

Eyni ilə Azərbaycan. İndi türk xalqları və dövlətlərinin birliyinin ən yüksək məqamını yaşayırıq. Bir zamanlar xəyal etdiklərimiz indi həyatımızın reallığıdır. Bu birliyin istər təməllərinin

– Keçmişə sayğı insanlıq borcudur, başqa yolu da yox. Dədə Qorqud görün nə deyir, "Atasına hörmət etməyənin uşaqlarına hörmət edilməz". Vaxtilə mən tək bu kəlamın fəlsəfəsini anlada bilən bir məqalə də yazmışdım. Çox zəngin kökümüz, min illəri əhatə edən, dünya sivilizasiyasına möhür vuran qədim və zəngin tariximiz var.

**– Dünyanın yeni bir dövrə qədəm qoyması sovetlərin dağılması ilə başladı və sizin dediyiniz tarixi mirasa sahiblənən türk birliyi ideyası gerçəyə çevrildi.**

– Yadınıza düşürsə, Atatürk bu barədə danışıb, hələ 100 il öncə sovetlərin dağılacağını deyib. Dağıldı da... Türk birliyinin yaradılması ideyası da bundan sonra yarandı və təbii ki, yaranmalı idi də. İlk addımlar da o vaxtdan başlayır. Görülən işlərin səmərəsi böyükdür, çox önəmlidir. Amma bir işin də görülməsi vacibdir. Biz uşaqlarımızı, böyüməkdə olan nəsilləri bir-birinə daha yaxından tanıtmalıyıq. Düzdür, zaman da bu işi görməkdədir, amma birlik bağlarının möhkəmlənməsinə, gedişatın sürətlənməsinə yardımçı olmalıyıq.

Deyək ki, Azərbaycandakı bir məktəblə mənim doğma şəhərim İzmirdəki bir məktəbin qardaşlaşması və dost olması lazımdır. Bu məktəblərdə oxuyan uşaqların, ailələrin qarşılıqlı razılığı ilə, izmirli bir uşağın azərbaycanlı ailəsində bir həftə, ya da bir ay qalması və o birinin İzmirdə olması gərəkdir. Deyim ki, Amerikanın belə bir təcrübəsi var və bununla Amerikanı dünyaya xeyli əlçatan edə bilmişlər. Bildiyim qədər onların belə bir layihəsi Azərbaycanda da həyata keçirilib. Biz niyə etməyək bunu?!

Uşaq qonaq olduğu yeni yaşayış yerində oynayacaq, yıxılacaq, duracaq və yeni dostlar qazanacaq, həm də zəngin bir xatirəyə sahib olacaq. Bir qayanın yanından ötüb keçəndən sonra, yadında o qaya ilə bağlı nələrsə qalacaq. Bu qayanın dibində oturarsan, dincələrsən, bir-birinizə qardaş, dost kimi sarılarsan, ya qayaya dırmaşarsan, dizin, barmağın qanayır və səni bu yerə onlarla xatirə bağlayar. Bu gün bu addımları atmağa ehtiyac var. Bir qazax, türkmən və ya başqa bir türk soylu uşağın digər bir türk köklü ailədə olmasına böyük Turana aparan yolun yeni üfüqləri kimi baxmalıyıq.

(ardı var)

*Söhbəti apardılar:*
***Namiq QƏDİMOĞLU,***
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

# Müasir əqli mülkiyyət ekosisteminin inkişafı



**Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktorunun müavini Hasan Kleybin başçılıq etdiyi nümayəndə heyətinin səfəri çərçivəsində dünən "Müasir əqli mülkiyyət ekosisteminin inkişafı: milli əqli mülkiyyət ofislərinin təkamülü və mütəxəssislərin hazırlanması" mövzusunda dəyirmi masa keçirilib.**

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bildirib ki, bu səfərin məqsədi əqli mülkiyyət ekosistemi ilə bağlı ölkəmizdə görülən işlərlə tanış olmaq, ÜƏMT ilə Azərbaycan arasında əməkdaşlığı daha da genişləndirməkdir.

Azərbaycana ilk dəfə gəldiyini deyən Hasan Kleyb Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini yüksək qiymətləndirib. O qeyd edib ki, ÜƏMT dünya ölkələri üzrə 204 qurum arasında ən nümunəvi idarəçilik modellərini toplayaraq onları digər ölkələrə çatdırmaq üçün təlimatlar hazırlayıb. Seçilən 15 ölkə sırasında Azərbaycan da yer alıb.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının rektoru Urxan Ələkbərov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və başqaları çıxış ediblər.

Bu gün ÜƏMT-nin mütəxəssisləri tərəfindən "Coğrafi göstəricilər" layihəsinin təqdimatı keçiriləcək.

***"Xalq qəzeti"***

"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı

# Şuşa muğam təntənəsi yaşadı

**Dünən "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı Azərbaycanın mədəniyyət paytaxtı Şuşada müxtəlif konsert proqramları ilə davam edib.**



Şuşanın müxtəlif məkanlarından, mədəni və qədim tarixi abidələrinin yerləşdiyi ərazilərdən muğam sədaları eşidilib. İlk konsert Şuşadakı Yaradıcılıq Mərkəzində təşkil olunub. Konsert proqramında tanınmış müğənnilər Nəzakət Teymurova "Bayatı-Şiraz", Firuz Səxavət "Mahur-Hindi", Cabir Abdullayev "Zabul-Segah" dəstgahlarını, Nuriyyə Hüseynova "Çahargah" kompozisiyasını ifa ediblər.

Növbəti konsert proqramı Xurşidbanu Natəvanın evinin qarşısında keçirilib. Proqramda İlkin Əhmədov, Gülyaz Məmmədova, Almaz Orucova, Gülüstan Əliyeva çıxış ediblər. Daha sonra Bülbülün ev-muzeyində və "Qarabağ" otelinin qarşısındakı parkda konsert proqramı təşkil olunub. Proqramda səvimli ifaçılar Gülyanaq Məmmədova, Mələkxanım Əyyubova, Mənsum İbrahimov, Simarə İmanova, Qəzənfər Abbasov, Mütəllim Dəmirov, Gülnar Qüdrətli "Xudayar" təsnifi, "Bayatı-Şiraz", "Segah", "Mahur" və digər muğam və təsniflərimizi, xalq mahnılarımızı təqdim ediblər.

Festival iştirakçıları, həmçinin digər ölkələrdən gəlmiş qonaqlar Şuşa şəhərində tarixi-mədəni abidələrimizlə tanış olublar.

Türkiyə Beynəlxalq Ənənəvi Musiqi Şurasının Türkdilli Dünya Musiqisi üzrə tədqiqat qrupunun sədri Abdullah Akat təəssüratını belə ifadə edib: "Şuşa bizim üçün çox önəmli və dəyərli bir yerdir. Türk mədəniyyəti paytaxtında olmaqdan qürur duyuram. Şuşa gözəl şəhərdir. Təbiəti, havası insanı valeh edir. Muğam Azərbaycan üçün çox dəyərlidir. Biz də bu günlərdə Bakıda keçirilən muğam müsabiqəsi üzrə birgə çox işlər gördük və layiqli qaliblər seçdik."

***"Xalq qəzeti"***

# İçərişəhərdə axşam şənliyi




**"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyunun 24-də İçərişəhərdə Şirvanşahlar Sarayında "Muğam Marafonu" layihəsi başlayıb.**

İyirmi dörd saat ərzində keçirilən layihənin hər saatında eyni məkanda 24 xanəndə bir-birini əvəzləyir və onları müşayiət edən heyətlə birgə muğam ifa edirlər. "Muğam Marafonu"nda xanəndələrə yanaşı, bir-birini əvəz edən 25 elektron musiqiçi də çıxış edir.

"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunan "Muğam Marafonu" dinləyicilər üçün bir gün ərzində dayanmadan muğamın ecazkar dünyasına bir səyahətdir.

Qeyd edək ki, "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi və himayəsi altında keçirilir.

***"Xalq qəzeti"***

Sözün Vətəni – Vətənin sözü

# Qədim Dərbəndin poetik mənzərəsi

## İlk sorağını “Dədə Qorqud” kitabından almışıq



**“Koroğlu” dastanının isə bir qolu bu şəhərlə bağlıdır. “Dəmirqapı Dərbəndə gedirəm. Ərəb paşanın qızı Möminə xanım boynuma deyin salıb, gərək gedəm, onu gətirəm”, - söyləyən Koroğlunun ilk sevgi macərası bu gözəl diyarla bağlıdır.**

Dərbəndin şəninə dahi Nizaminin də söz qoşduğu məlumdur. Bu şəhərin hakimi Seyfəddin Müzəffərə bir qəsidə yazıb göndərən şair sarayda çox yüksək qiymətləndirilir. Seyfəddin Müzəffər Afaq adlı zəkalı kənizini Nizamiyə bağışlayır. Sonrakı əsrlərdə Xəstə Qasımın və Gülablı Aşıq Valehin “Dərbənd səfəri” dastanlarını oxuyaraq bu şəhəri diləzbərimizə çevirmişik.

Avropa ilə Asiyanın qovuşuğu olan coğrafi məkanda qərar tutmuş Dağıstanın Dərbənd şəhəri tarixin o başından dikəlib, bu başındakı gerçəklərdə, nağıl və dastanlarda bardaş quran ulu yurd yerlərimizdəndir. Karvan-karvan çal-çağır daşınıb, məclislər yeriyib, yığnaqlar qurulub, bəzirganlar, ozanlar könüllərimizdə bir Dərbənd taxtı ucaldıblar. Bəzi dönəmlərdə bizim üçün “dar bənd” olsa da, heç zaman Dərbənd gözümüzdən, dilimizdən uzaq düşməyib.

Nəhayət, üzünü görmək qismətini də yaşadıq. Şahidi olduq ki, Dərbəndin Azərbaycan türkləri avar, ləzgi, tabasaran, lak, qumuq, noqay, dargin, saxur və digər xalqlarla birlikdə mehriban dolanır, bir-birinin mədəni örnəklərinə, adət-ənənələrinə hörmət bəsləyirlər.

Dərbəndə məsafə və ruhca çox yaxın məkan Qubadır. İki şəhər arasında qurulmuş ədəbi körpünü “işlək” saxlayan şair dostumuz – AYB-nin Quba bölməsinin rəhbəri Ramiz Qusarçaylının təbirincə desək, Dərbəndin diri ruhu Narınqala əzəmətində, Calğan dağına qalxan yoxuşlarda, ərənlərin adlarına uyğun Qırxlar qapısı, Daşqapı, Carçıqapı, Bayat qapı, Orta qapıdan, digər ulu daşlardan boy göstərir. Bu qədim şəhər həm də şairlərin daşa dönən göz yaşı, rəssamların yağışda qarışan akvarel rəngləridir... Beləcə, baxışlarda cilvələnir, ürəklərdə döyünür, duyğu və düşüncələrdə bəslənir Dərbənd. Bu şəhər həm də bizim üçün 5000 illik tarixin səhifələrində dil-dil ötən giley-güzarlı soyumuz, öləndə xəzinə ürəklərini o dünyaya aparan şişpapaqlı ağsaqqallarımızdır.

Dərbəndli şair qardaşımız, AYB üzvü Fəxrəddin Oruc Qəribsəs deyir ki, bu şəhərin sakinləri “Heydər Əliyev Fondu”nun son illərdə atdığı addımlardan qürur duyurlar. Keçmiş “Sovetski”, indiki Heydər Əliyev prospekti, dünya ədəbiiyyatının parlaq günəşi Nizami Gəncəvinin, II Dünya Savaşının əsfanəvi qəhrəmanı Şəmsulla Əliyevin abidələri və adlarını daşıyan parklar yenidən qurulub.

İndi hər iki məkan şəhər əhalisinin ən sevimli istirahət məkanına çevrilib. İnişil Nizaminin 880 illiyi münasibətilə burada anım tədbiri, şairin adını daşıyan 6 nömrəli məktəbdə isə “İrs” regional ictimai təşkilatının xəttilə şəhər administrasiyası ilə birlikdə ədəbi-bədii gecə təşkil edilib. (Təəssüf ki, Azərbaycan dövləti vəsait ayırsa da, 140 yaşlı “Dərbənd-Azərbaycan Dövlət Teatrı”nın yeni binasının inşası gecikdirilir)...

Şimal bölgəmizin söz çiçəkləri ilk dəfə böyük mütəfəkkir Abbasqulu Ağa Bakıxanov tərəfindən 1835-ci ildə təməli qoyulan ədəbi məclislə solmaz bir “Gülüstan”a dönüb. Quba və ətrafında qaynar ədəbi mühit formalaşıb. Məclisin əhatə dairəsi Rusiyadan tutmuş bir sıra Avropa ölkələrinə qədər genişlənmiş, bütün Şərqdə ilk dramaturq qadın Səkinə xanım Axundzadənin, Mirzə Möhsün Xəyalinin, Xaltanlı Tağının, Xınalıqlı Əminin, Baba Buduqinin, Hacı Qubalının, Yetim Eminin, Süleyman Stalskinin və digər saz-söz ustalarının yetişməsinə gətirib çıxarmış, milli ədəbiyyatın və mədəniyyətin zənginləşdirilməsinə böyük töhfələr vermişdi.

Samurun o üzündən Məsum Dərbəndi, Feyzi Dərbəndi, Bayat Abbas, Yusif Dərbəndi, Diləfruz Pəri, Hüseynəli Xan Məhzun, Xəlil Dərbəndi, Zərnigar Dərbəndi, Əhməd Dərbəndi, Niftullah Dərbəndi, Məhəmməd Tağı Qumri, Zövqi, Mirzə Səməndərin gur poetik hayqırtıları, həzin, lirik pıçıltıları bu gün də eşidilir.

Şahdağdan Narınqalaya qədər və əksinə uzanan yollarda Quba və Dərbənd şairlərinin, söz azmanlarının ilhamı həmişə Samurun sularında ləpələnib həsrət nəğmələrinə, qüssə notlarına, qürur ifadələrinə dönüb. Bu gün Qubanın “Ay işığı” və Dərbəndin “Narınqala” ədəbi məclisləri uğurla çulğaşmaqda, nəfəs-nəfəsə nəğmələr ötməkdədir. “Təzadlı əsrimin vətəndaşıyam, təkcə baş daşında qalmasın adım” deyən şair Təhmirazın nigarançılığı, “Təkcə sən girirsən gizli röyama” deyən Çimnaz Nəcəfovanın etirafı, “Elə bil asılıb donmuş budaqdan, Şəfəqlər içində yanır qar quşu” deyən Fəxrəddin Orucun gözəllik tablosu, “Qanlı cəllad, niyə qıydın bizlərə?” ittihamını səsləndirən Şıx İbrahimin harayı, Aşıq Sakit Köçərinin “Misri” üstündəki cövlanı könüllərimizi duyğulandırır.

1993-cü ildə Qubada Ramiz Qusarçaylının təşəbbüsü və rəhbərliyi ilə “Ay işığı” yaradıldı və ətraf rayonların istedadlı qələm sahibləri bu işığa üz tutdular. Ondan 4 il sonra Dərbənddə “Narınqala” böyük sənətə cığır açdı, “Ay işığı” ilə əməli əlaqələr quruldu. “Dərbənd” qəzetinin nəzdində qurulan yaradıcılıq mühitinə görkəmli şair Təhmiraz İmamov yön verməyə başladı. Dərbənd şairlərinin əsərləri Bakıda, qubalı sənətçilərin əbədi nümunələri isə Dərbənddə dərc olunmağa başladı, görüşlər keçirildi, birgə tədbirlər planı cızıldı. “Ay işığı” adlı poeziya almanaxı vasitəsilə “Narınqala”nın söz inciləri respublikamızın mətbu orqanlarında işıq üzü gördü. “Quba” Xeyriyyə Cəmiyyətinin sədri professor Vaqif Arzumanlının yaxından köməkliyi sayəsində Dərbənd şairlərinin də geniş təqdim edildiyi dörd ədəbi toplu nəşr olundu.

Bu gün AYB Quba bölməsinin rəhbəri, yenicə TÜRKSOY-un “Nizami Gəncəvi” medalına layiq görülmüş Ramiz Qusarçaylını və qələmdaşlarını “Narın qala” və “Ay işığı” ədəbi məclislərini daha sıx bədii izdivaca, daha işıqlı sabahlara yönəltmək amalı birləşdirir. Necə deyərlər, Ayın işığı narın-narın Narınqalaya düşür, qalanın əzəməti isə sanki, dağları bir boy da ucaldır. Eyni zamanda, Qubada “Gülüstan”, Xaçmazda “Ulduzlar”, Xudatda “Söz işığında”, Şabranda “Xaqani şeir-sənət ocağı”nın, Dərbənddəki dərnəklərin söz-sənət naminə çalışmaları səngimir.

Şair demişkən, ara-sıra Bakıdan yol alan görüşlərlə təsəlli tapan həssas soydaşlarımızın ümidi o dağların yaralı daşlarının bərpasına, “dərd bəndimiz” Dərbəndin hər zaman gözdə-könüldə əziz tutulmasınadır.

Daşında, qalasında Dədə Qorqud ruhunun, obalarında Dədə Qorqud ləhcəsinin yaşadığı qədim şəhərin şairlərinin bəzi ədəbi nümunələrini oxuculara təqdim edirik.

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI,***
***AYB-nin üzvü***

### DƏRBƏNDİM



*Dağları, düzləri güllü, çiçəkli,*
*Gülü yaz gönçəli teli ləçəkli.*
*Havası həzin meh, çəməni şehli,*
*Qədim tarixlərin sözü Dərbəndim.*

*Qalası baş tacı, Xəzəri sərin,*
*Adının, özünün mənası dərin.*
*Çeşmə bulaqları mirvarim, zərim,*
*Ulu babaların izi Dərbəndim.*

*Peyğəmbər süfrəsin çırpıbdır səndə,*
*Bərəkəti səpələnib hər bəndə.*
*Sənlə ruhlanıram, inan ki, mən də,*
*Bütün millətlərin gözü Dərbəndim.*

*Zeynəbin gözündə dağdan ucasan,*
*Nə olsun qədimsən, ya ki qocasan.*
*Məni anam kimi sevib qucasan,*
*Bu qəmli şairin üzü Dərbəndim.*

***Zeynəb DƏRBƏNDLİ***

### PAYIZ



*Payızın təmtəraq sorağına bax,*
*Yarpağın qızaran yanağına bax,*
*Zoğalın alışan çırağına bax,*
*Əbədi açılmaz sirdi bu payız.*

*Gilavar dalınca ötür gilavar,*
*Küləklər bir-birin qaça-qaç qovar,*
*Belə bir payızdan, söylə, harda var,*
*Elə bil əzəldən birdi bu payız.*

*Qəlbimin evinə çəkdim selini,*
*Duman əzizləyir dağın belini.*
*Şair Qəribsəsin könül telini,*
*Bir üsyan qopardı, qırdı bu payız.*

***Fəxrəddin Oruc QƏRİBSƏS***

### KİMİMSƏN MƏNİM



*Əgər isidirsə qəlbimi odun -*
*Sən niyə bilmirsən, kimimsən mənim?*
*Ruhu ulu babam Dədə Qorqudun*
*Sazında olmayan simimsən mənim.*

*Əgər çiçəksənsə, seyranın ollam,*
*Ömrüm boyu sənin heyranın ollam.*
*Qaçırsan yuxumu, qurbanın ollam,*
*Çağır - hənirtimsən, himimsən mənim.*

*Çörəyə xor baxan duzdan da olar,*
*Qışı bəyənməyən yazdan da olar.*
*Deyim, çox istəyən azdan da olar,*
*Qoy olsun, azımsan, kəmimsən mənim.*

*Sandım, istəyinin qayəsiyəm mən,*
*Demə, qəmlərinin baisiyəm mən.*
*Məhəbbət dininin banisiyəm mən-*
*Təzə yaratdığım dinimsən mənim.*

***Təhmiraz İMAMOV***

### XƏYAL



*Dünənki axşamdı xəyallarımda.*
*Tərk etdik səninlə aulu bir an.*
*Sükut çəpər çəkdi dağ yollarında*
*Sükutla bərabər, məndim oxuyam...*

*Xəyallar günümü dünənə açdı,*
*Çiçək gözlərində açan mən idim.*
*Ah, səni xoşbəxtlik necə qucmuşdu,*
*Sənin həsrətini qucan mən idim.*

*Dünənki axşamdı, dağ yollarında*
*Qoy gecə uzansın, Ay pıçıldasın.*
*Elə hey danışır xəyallarım da,*
*Səninlə... sevgidən qoy pıçıldasın.*

***Elman ABBAS***

### TƏNHAYAM



*Sənsiz bircə gün də dözülməz olur,*
*Mən heç özümə yer tapa bilmirəm.*
*Axı dağlar boyda dərd nəyə lazım?*
*Mən acı dərdlərlə çox üzülürəm.*

*Bütün acılara dözüb durardım,*
*Təkcə həmişəlik ayrılığa yox.*
*Biz necə ayrıldıq, mən anlamadım,*
*Sanki, ürəyimə sancıldı bir ox.*

*Artıq aramızda eşq odu yoxdur,*
*Həsrətdən ürəyim donub üşüyür.*
*Əgər istəsəydin bunlar olmazdı,*
*Ayrılıq həsrəti qəlbimi oyur.*

*Bir kəlmə demədən, sağollaşmadan,*
*Öz əllərinlə qapını bağladın.*
*Verdiyin o yalan vədələrinlə,*
*Gülə-gülə ürəyimi dağladın.*

*Sızır pəncərəmdən payız yağışı,*
*Ürəyim tək-tənha döyünür yenə.*
*Bilirəm ki, sənsən tək xilaskarım,*
*Baxıram qapıya mən dönə-dönə.*

***Safiyat CALĞANLI***

### NARINQALA



*Qoca tarix bizi salanda qana*
*Dərbənd ocağında bir od qaladı.*
*Anatək yer verdi qoynunda ona,*
*Adı da qəribə - Narınqaladı.*

*Uca dağ döşündə yerləşən qala*
*Azğın düşmənlərə sinə gəribdi.*
*Neçə əsrləri salsa da yola,*
*İndi tək-tənhadı, indi qəribdi.*

*Şəninə nəğmələr yazmaqçın bu gün*
*Min yol boşalasan, dolasan gərək.*
*Onun şöhrətini artırmaq üçün*
*Divarının daşı olasan gərək.*

***Tahir SALEH***

# Mədəniyyət xəbərləri

***Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyi təşkilata üzv dövlətlərin səfirlikləri ilə birgə iyunun 24-də Avropa Oyunlar Parkında “Avropa təamları” adlı kulinariya festivalı keçirib. Açıq havada reallaşan bu tədbirin məqsədi Avropa mətbəxini Azərbaycan ictimaiyyətinə tanıtmaqdır.***




Avropa Oyunlar Parkına (Su İdman Kompleksinin arxası) gələn Bakı sakinləri Avropa mətbəxi ilə bağlı ustad dərslərinə qatılıblar. Orada təşkil olunan kulinariya müsabiqələri də maraqlı olub. Bolqarıstan, Çex Respublikası, Fransa, Macarıstan, İtaliya, Polşa və Rumıniya səfirlikləri qonaqları öz ölkələrinin mətbəxi ilə tanış ediblər. Tədbir zamanı Aİ nümayəndəliyi tərəfindən nəşr edilmiş “Avropa Təamları” adlı kitabın da təqdimatı olub.

***



***Mədəniyyət Nazirliyi regionlara təşkil olunan qastrol səfərlərinə start verib. Bu çərçivədə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Lənkəran Dövlət Dram Teatrında “Bremen musiqiçiləri” tamaşası ilə çıxış edəcək.***

Teatrın mətbuat xidmətindən verilən məlumata görə, Qrim qardaşlarının eyniadlı məşhur nağılının motivləri əsasında yazılan pyesin müəllifləri Yuri Entin və Vasili Livanovdur. Tamaşanın quruluşçu rejissoru Nicat Kazımov, quruluşçu rəssamı Telman Şıxıyev, musiqi tərtibatçısı İradə Muradovadır. Səhnə əsərində Anar Seyfullayev, Aygün Fətullayeva, Elşən Şıxəliyev, Bəhram Əliheydər, Xaliq Bəkirov, Araz Primov, Müşviq Əliyev və başqa aktyorlar iştirak edirlər.

***

***Bəstəkar, Əməkdar artist, dosent Vüqar Camalzadə Özbəkistan Dövlət Konservatoriyasının (ÖDK) dəvəti ilə Daşkənddə xalq çalğı alətləri ifaçılığı üzrə bakalavr və magistr buraxılış kurslarının dövlət imtahan komissiyasının sədri qismində çıxış edib.***



Yüz məzundan imtahan götürən bəstəkar özbək gənclərin bilik səviyyəsi və istedadını yüksək qiymətləndirib. Həmyerlimizin işindən razı qalan ÖDK rəhbərliyi gələcəkdə də əməkdaşlıq təklifi irəli sürüb. Vüqar Camalzadəyə diplom və xatirə hədiyyələri təqdim olunub.

***Ə. DOSTƏLİ,***
***“Xalq qəzeti”***

# Yanğından mühafizə komandalarının təlim-metodiki toplanışı

**Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü tədris ilinin planına əsasən, qoşun növlərinin, birlik, birləşmə və hərbi hissələrin yanğından mühafizə komandalarının rəisləri, həmçinin yanğından mühafizə üzrə müfəttişləri ilə təlim-metodiki toplanış keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin “N” hərbi hissəsində keçirilən toplanışda yanğın profilaktika işinin təşkili, hərbi hissənin yanğından mühafizə komandasının vəzifə borcları və hüquqları, yanğından mühafizə komandasının xidməti sənədləri üzrə təkmilləşdirmə məşğələləri təşkil olunub.

Toplanışın keçirilməsində əsas məqsəd yanğından mühafizə komandalarının rəislərinin bilik səviyyəsini artırmaq, hərbi obyektlərdə baş verə biləcək hər hansı yanğına qarşı praktiki vərdişləri aşılamaqdır.

**“Xalq qəzeti”**

*Texnologiya aləmində*

# Süni intellekt jurnalisti əvəz edə bilərmi?

**Süni intellekt (Sİ), nəhayət ki, jurnalistikaya da nüfuz etməyə başlayıb. Almaniyanın "Bild" tabloidinin sahibləri onun əvəz edəcəyi 200-ə yaxın əməkdaşını işdən çıxarmağı planlaşdırır. Britaniyanın "The Guardian" qəzeti yazır ki, bu, sahibkarların, təxminən, 100 milyon avroya qənaətinə imkan verəcək.**



Əlbəttə, bu, müasir dünyamızda sürətlə yerini möhkəmləndirən süni intellektin insan zəkasını əvəzləmək cəhdinin nə ilk, nə də son nümunəsidir. Amma texnoloji baxımdan onun üstünlükləri kifayət qədərdir. Məsələn, mətbuatda süni intellekt böyük həcmdə məlumatı avtomatik axtarmaq və emal etmək üçün istifadə oluna bilər ki, bu da jurnalistlərin aldıqları bilgini təhlil və şərh etmələrinə imkan verər. Bundan əlavə, Sİ-nin hadisələrin və nəşrlərin xülasəsini yaratmaq, həmçinin analitik materiallar hazırlamaq üçün də istifadəsi mümkündü.

Görünür, "Bild"in sahibləri də bunu əsas götürərək, onun imkanlarından yararlanıb xərclərini azaltmağa və daha çox gəlir əldə etməyə çalışırlar. Çünki süni intellekt artıq böyük həcmdə məlumatların təhlili, trendləri tapmaq və mühüm xəbərləri müəyyənləşdirmək üçün istifadə edilir. Bu, jurnalistlərə daha tez maraqlı trendlər tapmağa və oxucular üçün uyğun olacaq materiallar yaratmağa kömək göstərə bilər. Süni intellektin həm də mətnlərin avtomatik olaraq müxtəlif dillərə tərcüməsində istifadə olunması mümkündür ki, bu da məlumatların daha çox insana çatmasına şərait yaradar.

Bu imkanlardan yararlanmağa qərar verən "Bild"in "Frankfurter Allgemeine"-dən (FAZ) olan rəqibləri öyrəniblər ki, "Axel Springer-Verlag" media konserni "vəzifələri süni intellekt və yaxud avtomatlaşdırılmış proseslərlə yerinə yetirilən" işçilərini ixtisar etməkdə israrlıdır. Bu səbəbdən qəzetin regional şöbələrinin sayı 18-dən 12-yə endiriləcək.

Almaniya Jurnalistlər Birliyi (DJV) media qrupunun planlarını tənqid edərək, işçilərin ixtisarının "şirkətin pul inəklərini məhv edəcəyi" barədə xəbərdarlıq yayıb. Assosiasiya belə bir addımın "işçilərə münasibətdə təkcə ictimai təhlükə olduğu deyil, həm də iqtisadi baxımdan son dərəcə sərsəm addım olduğunu" vurğulayıb.

Fevral ayında "Axel Springer-Verlag"in baş direktoru Matias Dyöfner nəşriyyatın "tamamən rəqəmsal media şirkəti" olacağını açıqlamışdı. O hesab edir ki, "ChatGPT" kimi süni intellekt alətləri "müstəqil jurnalistikanı əvvəlkindən daha yaxşı edə və ya onu əvəzləyə bilər". Dyöfner proqnozlaşdırır ki, "tezliklə süni intellekt məlumat toplamağı" jurnalistlərdən daha yaxşı həyata keçirəcək. Nəticədə, onun fikrincə, yalnız "ən yaxşı orijinal kontent" yaradan nəşrlər yaşayacaq – məsələn, onlar jurnalist araşdırması aparacaq və ya ekspert şərhləri dərc edəcəklər.

"The Guardian" qeyd edir ki, "Axel Springer-Verlag" süni intellektdən istifadə haqqında düşünən birinci nəşr deyil. "BuzzFeed" bəyan edib ki, bu il kontenti və onlayn viktorinaları "təkmilləşdirmək" üçün süni intellektdən istifadə niyyətindədir. Böyük Britaniyanın "The Daily Mirror" və "The Daily Express" qəzetləri də sadə istifadəçi sorğuları əsasında olduqca mürəkkəb mətnlər yarada bilən yeni texnologiyalardan yararlanmağın mümkünlüyünü araşdırırlar.

Yeri gəlmişkən, proqramın cavabları heç də həmişə dəqiq olmur, bəzən hətta səhv olur. Belə ki, aprel ayında Almaniyanın "Die Aktuelle" həftəlik nəşrinin naşirləri yeddiqat Formula 1 çempionu ilə tamamilə süni intellekt tərəfindən yaradıldığı üzə çıxan "müsahibə"ni dərc etdikdən sonra redaktoru işdən çıxarıb və Mixael Şumaxerin ailəsindən üzr istəyiblər. Fransa Alp dağlarında kəllə-beyin travması aldıqdan sonra ictimaiyyət qarşısına çıxmayan yarış avtomobili sürücüsünün yaxınları naşirlərə qarşı məhkəmə iddiası irəli sürüblər.

**P.S.** Əlbəttə, gələcəkdə süni intellekt jurnalistlər üçün daha yaxşı və daha informativ trendlər hazırlamağa kömək etməkdə əvəzsiz vasitə ola bilər. Ancaq unutmayaq ki, belə olacağı təqdirdə, o, sadəcə, media təmsilçilərirnin işini əhəmiyyətli dərəcədə sadələşdirə bilən bir alət olacaq, lakin onları tam əvəzləyə bilməz. Çünki cəmiyyətdən, insanlardan gerçək həyat hekayələri yazmaq üçün insan zəkasına, ruhuna, hisslərinə və yaradıcılığına həmişə ehtiyac olacaq.

***Hazırladı:***
***İLQAR, "Xalq qəzeti"***

**Bütün istiqamətlərdə döyüşlər davam edir. Rusiya ordusu heç bir uğur əldə etməyib, hər gün canlı qüvvə və texnika itkiləri verir. Dünən Baxmut bölgəsində 100-ə yaxın rus əsgəri öldürülüb, 130-a yaxını isə yaralanıb. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin şərq qoşun qrupunun spikeri Sergey Çerevatı bildirib: "Eyni zamanda, Kupyansko-Limansk istiqamətində düşmən bizdən güclü cavab zərbələri aldıqdan sonra xeyli zəifləyib".**

# Baxmut yaxınlığında vəziyyət gərgindir



Çerevatının sözlərinə görə, Rusiya iyunun 24-nə keçən gecə Kiyevə qanadlı raketlərlə zərbələr endirib. Atılan 20-dən artıq raket zərərsizləşdirilib. Onlardan birinin qalıqları şəhərin mərkəzi hissəsində 24 mərtəbəli yaşayış binasına ciddi ziyan vurub, üç mərtəbə sıradan çıxıb.

Hadisə yerinə gələn Kiyev şəhər meri Kliçko bildirib ki, partlayış zamanı ziyan görən vətəndaşlara dövlət tərəfindən yardım ediləcək. Kiyev Regional Hərbi Administrasiyasının yaydığı məlumata görə, hadisə nəticəsində azı iki nəfər həlak olub, yaralılar var. Dayanacaqdakı 40-a yaxın avtomobilə ziyan dəyib. Ukrayna Hava Qüvvələri Komandanlığının spikeri, polkovnik Yuri İqnat telemarafon zamanı açıqlayıb ki, iyunun 24-ə keçən gecə Ukrayna ərazisinə 50-dən artıq raket atılıb.

Cəbhədə isə hər iki tərəfin ciddi uğuru yoxdur. Qərb vəziyyətin Ukraynanın xeyrinə dəyişməsi üçün əlavə tədbirlər görmək niyyətindədir. ABŞ Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi deyib: "Ukrayna Silahlı Qüvvələri əks-hücuma hazırlaşdığı dövrdə, düşmən bəzi yerlərdə üççərgəli müdafiə xətləri yaradıb: "Biz bütün diqqətimizi Ukrayna Silahlı Qüvvələrini lazım olan hər cür silahla təmin etməyə yönəltmişik... Hamımız etiraf etməliyik ki, döyüşlər gözlənilməz ola bilər və bəzən planlar gözlənildiyi kimi getmir... Biz son nəticəyə diqqət yetirəcəyik".

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# Hərbi Prokurorluqda qazilərlə görüş keçirilib

**İyunun 24-də Hərbi prokurorluqda müharibədə iştirak etmiş hərbi qulluqçular, o cümlədən qazilər ilə görüş keçirilib.**



Baş prokurorun müavini–Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasim iştirakçılarını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib.

Hərbi prokuror qeyd edib ki, Azərbaycan Prezidentinin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir avadanlıqlarla zənginləşdirilib.

Ehtiyatda olan polkovnik Abdulla Qurbani və çıxış edən digər şəxslər Vətən müharibəsindən, eləcə də 44 günlük döyüşlərdə Hərbi Prokurorluğun özünəməxsus rolundan bəhs ediblər.

***"Xalq qəzeti"***

# Əlil gənclər Türkiyəyə təcrübə kursuna göndərilib

**Əlilliyi olan 18 gənc Sosial Xidmətlər Agentliyi tərəfindən Türkiyəyə yola salınıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, əlillər peşə dərnəklərində təcrübə kursu keçmək üçün qardaş ölkəyə göndəriliblər.**

Onlardan bir qismi Vətən müharibəsi ilə əlaqədar əlil olanlardır. Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov Türkiyəyə yola salınan gənclərlə görüşərək onlara uğurlar arzulayıb. Bildirilib ki, agentliyin Əlilliyi olan şəxslərin Peşə Əmək Reabilitasiyası mərkəzində bu il 35 nəfəri Vətən müharibəsi əlili olmaqla 343 nəfər əlilliyi olan şəxsə peşə reabilitasiyası xidmətləri göstərilib.

Mərkəzə müxtəlif peşələr üzrə hazırlığa cəlb olunan gənclər, bir qayda olaraq, Türkiyədəki müvafiq peşə dərnəklərinə təcrübə kurslarına da göndərilir. Türkiyənin Ankara və Antalya şəhərlərində təşkil olunan həmin kurslara son illərdə bu kateqoriyadan olan 114 gənc yola salınıb.

Bu təcrübə səfərləri Avropa İttifaqının Avropa Həmrəylik Korpusu Proqramı çərçivəsində və Agentliyin Türkiyənin Fiziki Məhdudiyyətli Şəxslərin Dərnəkləri Federasiyası ilə birgə layihəsidir.

Qeyd edək ki, layihə "Sağlam Düşüncə" Gənclər Təşkilatı İctimai Birliyi ilə imzalanan memorandum əsasında və Türkiyə Milli Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilir.

# "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi " ASC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Torpaq, tikili və avadanlıqlar | 105 585,70 | | 114 292,14 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **105 585,70** | | **114 292,14** |
| **Qısamüddətli aktivlər** | | | | |
| Ehtiyatlar | 823 737,79 | | 823 737,79 | |
| Qısamüddətli debitor borcları | 1 252,31 | | 475 558,78 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1 252,42 | | 825,89 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **826 242,52** | | **1 300 122,46** |
| **CƏMİ AKTİVLƏR** | | **931 828,22** | | **1 414 414,60** |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 365 452,00 | | 365 452,00 | |
| Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | 1 382,72 | | 1 382,72 | |
| Kapital ehtiyatları | 321 638,19 | | 732 977,61 | |
| **CƏMİ KAPİTAL** | | **688 472,91** | | **1 099 812,33** |
| Qısamüddətli kreditor borcları | 221 370,02 | | 283 954,49 | |
| Sair qısamüddətli öhdəliklər | 21 985,29 | | 30 647,78 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **243 355,31** | | **314 602,27** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **243 355,31** | | **314 602,27** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **931 828,22** | | **1 414 414,60** |

**Məcmu gəlirlər və zərərlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 72 602,97 | 0,00 |
| Sair əməliyyat gəlirləri | 106 610,14 | 90 265,00 |
| İşçi heyəti üzrə xərclər | 93 378,56 | 77 167,00 |
| Amortizasiya xərcləri | 8 706,44 | 9 199,00 |
| Sair əməliyyat xərcləri | 90 543,43 | 70 897,65 |
| Əməliyyat mənfəəti (zərəri) | (13 415,32) | -66 998,65 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | (13 415,32) | -66 998,65 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| İlin əvvəlinə kapital | 1 099 812,33 | 1 099 812,33 |
| İllik artım/çatışmamazlıq | 411 339,42 | 0,00 |
| İlin sonuna kapital | 688 472,91 | 1 099 812,33 |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| -əsas vəsaitlərin amortizasiyası | 8 706,44 | 9 199,00 |
| ***Dövriyyə kapitalında dəyişikliklər*** | **8 706,44** | **9 199,00** |
| -qısa müddətli debitor borclarda artım/azalma | 474 306,47 | - |
| -kapital ehtiyatları üzrə | (411 339,42) | (25 963,42) |
| -qısamüddətli kreditor borcların da artım/azalma | (62 584,47) | (8242,43) |
| -sair qısamüddətli öhdəliklər üzrə | (8 662,49) | 25 963,42 |
| -Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | (1 375,68) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(8 279,91)** | **(9 618,11)** |
| **Pul vəsaitlərinin və bank over draft larının xalis artımı/azalması** | **426,53** | **(419,11)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **825,89** | **1 245,00** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **1 252,42** | **825,89** |
| **İl ərzində artım/azalma** | **426,53** | **(419,11)** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC-nin rəhbərliyinə şərti müsbət rəy**

Mən "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi " ASC-nin, (bundan sonra - cəmiyyət) 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Məncə hesabatımızın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini kommersiya təşkilatları üçün Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik.**

Diqqət koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəldilməlidir. Hazırki şəraitdə assosiasiyanın öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

**Şərti müsbət rəy üçün əsaslar.**

Cəmiyyət maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatları Standartlarında müəyyən edilmiş formalara müvafiq tərtib etməlidir. Təqdim olunmuş hesabatın həmin sənədlərə tam müvafiqliyi təmin olunmalıdır.

Mən auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına , düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti.**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**Sərbəst auditor – Talıbov Vidadi Musa oğlu**
**15 aprel 2023-cü il.**

# Səyyar Klinika Tovuzda oftalmoloji aksiya keçirib

**Milli Oftalmologiya Mərkəzinin direktoru, professor Elmar Qasımovun təşəbbüsü ilə respublikanın bütün bölgələrində akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş tibbi xidmət təşkil edilir. Bu aksiyaların keçirilməsində məqsəd bölgə sakinlərinin əlavə xərc çəkib paytaxta gəlməməsinin təmin edilməsi, göz ilə bağlı olan problemlərin həllinə kömək göstərməkdir. Aparılan müayinələr əsasında göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılır və əldə edilən nəticələr müzakirə edilir.**







Oftalmologiya Mərkəzinin Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən verilən məlumata görə, Dəmiryolu Səyyar klinikası Tovuz şəhər sakinlərinə iki gün tibbi xidmət göstərib. Müayinələr zamanı aşkar edilən ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasientlərin mərkəzə gəlmələrinə şərait yaradılıb.

Qeyd edək ki, mərkəz rayonların əhalisinə təmənnasız oftalmoloji, həmçinin cərrahi xidmət göstərmək üçün 2005-ci ildə müasir diaqnostik və cərrahi avadanlıqla təchiz olunmuş səyyar klinika təşkil etmişdir. Səyyar xidmətin məqsədi əhalinin vaxt itirmədən, öz yaşadıqları ərazilərdə müayinə, müalicə və əməliyyat olunmasıdır. Klinikada təcrübəli və xaricdə ixtisas keçmiş həkim-oftalmoloqlar müxtəlif göz xəstəliklərinin müayinə və müalicəsi, eləcə də əməliyyatı ilə məşğul olur. Oftalmologiya mərkəzinin bölgələrdəki filialları müasir texnoloji avadanlıqlarla təchiz olunub.

Bölgə sakinlərinə xidməti daha da genişləndirmək üçün 2018-ci ildən mərkəzin Dəmiryolu Səyyar klinikası da fəaliyyətə başlayıb. Tovuzda da iyunun 23–24 də keçirilmiş tibbi aksiya səyyar qatarla təşkil olunub. Tibbi aksiyada şəhid ailələri, müharibə veteranları, aztəminatlı ailələrdən olan şəxslər iştirak ediblər. Müasir avadanlıqlar vasitəsilə pasientlərin kompleks şəkildə göz müayinəsi aparılıb, görmə itiliyi, göz təzyiqi, göz dibi xəstəlikləri yoxlanılıb və müvafiq müalicələr təyin olunub.

Aksiya çərçivəsində 200-dən çox şəhid ailəsi üzvü və qazi müayinə olunub. Müayinələr əsasında retinopatiya, refraksiya patologiyası, presbiopiya, miopik astiqmatizm, allergik konyunktivit, quru göz sindromu və s. diaqnozlar aşkar edilib. Onlara lazımi tövsiyələr verilib.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

*Şəhidlərimiz*

# “Xocalının Əlifi” – Xalqın qəhrəmanı

**...Əlif Hacıyev Xocalı şəhərində yerləşən Hava Limanına rəhbər təyin edilmişdi. Ermənistandan gələn təyyarələrə nəzarət edir, onların uçuşlarını məhdudlaşdırırdı. Xidməti fəaliyyəti, qorxmazlığı ilə bütün Azərbaycana səs salmışdı. Nankor haylara göz verir, işıq vermirdi.**

Xankəndidə işlədiyi müddətdə erməni separatçılar ondan möhkəm çəkinir və aradan götürülməsinə, ən azı vəzifəsindən uzaqlaşdırılmasına çalışırdılar. Ancaq Qarabağ azərbaycanlıları sevinirdilər ki, Əlif onların arasındadır. Gecə-gündüz Xocalının müdafiəsi üçün var qüvvəsi ilə çalışırdı. Qətiyyən geri durmağı xoşlamırdı. Buna görə də, son nəfəsinə qədər döyüşən Əlif Hacıyev doğulub boya-başa çatdığı Xocalı torpağında döyüşlərin birində qəhrəmancasına həlak oldu. Azərbaycan Prezidentinin 6 iyun 1992-ci il tarixli fərmanı ilə Əlif Lətif oğlu Hacıyevə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi.



YAP Nizami Rayon Təşkilatı, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin (AVMVİB) Nizami və Nəsimi rayon şöbələrinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı şəhid mayor Əlif Lətif oğlu Hacıyevin 70 illik yubileyinə həsr olunmuş “Heç kim unudulmur, heç nə yaddan çıxmır” adlı anım günündə bütün bunlar iftixarla xatırlandı. “Azərbaycan bayrağı” ordenli polkovnik Elmar Hüseynov qəhrəman mayorun həyatı və döyüş yolu barədə məruzə ilə çıxış etdi. Şəhidin keçdiyi şərəfli döyüş yolundan, qeyrətli həmvətənləri ilə birgə Qarabağ uğrunda apardığı mübarizədən ətraflı bəhs olundu. Əlif Hacıyevin ailə üzvləri, döyüş dostları, qonaqlar da çıxış edərək, onunla bağlı xatirələrini bölüşdülər.

Sonra İctimai televiziyanın çəkdiyi “Xocalının Əlifi” sənədli filmi nümayiş olundu. İTV-nin əməkdaşları və sənədli filmin yaradıcı heyəti AVMVİB tərəfindən “Fəxri diplom”la mükafatlandırıldılar. Şəhid qəhrəmanın ailə üzvləri də xüsusi xatirə medallarla təltif olundular.

***Fidan HÜQUQQIZI,***
***“Xalq qəzeti”***

# Mərkəzi Bankın məlumatı

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin 24 iyun 2023-cü il tarixli qərarı ilə “Günay Sığorta” ASC-yə sığorta fəaliyyətinə verilmiş 14 avqust 2008-ci il tarixli 042483 nömrəli lisenziya ləğv edilmişdir.

# “Gənclik” ASC-nin 2022-ci il dekabrın 31-nə illik hesabatı

| | |
|---|---|
| 2.1.1 Emitentin tam və qısaldılmış adı,vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | “Gənclik” Açıq Səhmdar Cəmiyyəti, “Gənclik” ASC,(VÖEN 1500265291) qeydiyyat tarixi 01.06.2006, qeydiyyat №46. |
| 2.1.2 Emitentin hüquqi ünvanı və olduğu yer; | Bakı, Nərimanov rayonu, Olimpiya küçəsi 6. |
| 2.1.3Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitentin digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərinin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | “Gənclik”Açıq Tipli Səhmdar Cəmiyyəti, “Gənclik” ATSC, qeydiyyat tarixi 24.04.1998, qeydiyyat № D-2658;<br><br>“Gənclik”Açıq Tipli Səhmdar Cəmiyyəti, “Gənclik” ATSC, qeydiyyat tarixi 19.02.1999, qeydiyyat № 46. |
| 2.1.4 Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adları; olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Olmayıb. |
| 2.1.5 Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı,qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və quvvədə olma müddəti; | Olmayıb. |
| 2.1.6 Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun adı; | Deyil |
| 2.1.7 Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | İdman xidmətinin göstərilməsi |
| 2.1.8 Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Malik deyil |
| 2.1.9 Emitentin təklif etdiyi məhsullar və xidmətlər; | İdman xidməti |
| 2.1.10 Emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | İşçilərinin orta illik sayı 34 nəfərdir |
| 2.1.11 Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adları, soyadı, atasının adı | Müşahidə şurası:<br>Müşahidə şurasının sədri- Fərzəliyev İlham Rəfayıl oğlu;<br>Müşahidə şurasının üzvləri: Hacıyev Samir Ehtibar oğlu, Qəhrəmanov Süleyman Aslan oğlu<br>İcra orqanı: direktor - Şaxhüseynov Əli Əziz oğlu |
| 2.1.12 Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının ayrı-ayrılıqda sayı | Fiziki - 60 nəfərdir |
| 2.1.13 Emitentin nizamnamə kapitalının on beş faizi və daha artıq həcmdə səsli səhmlərinə malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | Babayev Kamal Ələkbər oğlu – 41,81 % (288500)<br>Babayev Tahir Kamal oğlu – 20,85 % (143858)<br>Babayeva Rəna Kamal qızı – 15,00 % (103500)<br>Əsədulla Çingiz Rauf oğlu - 20,85 % (143918) |
| 2.1.14 Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | Hüquqi şəxslər yoxdur. |
| 2.1.15 Emitentin səhmdarlarının hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | Səhmdarların ümumi yığıncağı keçirilib. |
| 2.1.15.1 Yığıncağın keçirilmə tarixi və yeri (ünvan) | 23 iyun 2023-cü il.,Bakı şəhəri, Olimpiya küçəsi 6. |
| 2.1.15.2 Ümumi yığıncağda qəbul edilmiş qərarlar | 2022 ci il üzrə maliyyə-təsərrüfat hesabatı . |
| 2.1.16 Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir) | Dövriyədə olan qiymətli kağızlar- səhmlər. |
| 2.1.16.1 İnvestisiya qiymətli kağızın növü və forması | Adi, adlı səhm, sənədsiz. |
| 2.1.16.2 İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | № 725/ A 21.05.98. |
| 2.1.16.3 İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | 690092 1 manatdır. |
| 2.1.16.4 İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | 690092 |
| 2.1.16.5 Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir) | Dividendlər ödənilməyib,2022-ci ilin mənfəəti hesabına,2017-ci və 2019-cu illərin zərəri kompensasiya edilib. |
| 2.1.16.6 Faizli istiqrazlar buraxılışı haqqında məlumatda- istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | Olmayıb. |
| 2.1.16.7 İnvestisiya qiymətli kağızlarının yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda) | Olmayıb. |
| 2.1.17 Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar | Olmayıb. |
| 2.1.17.1 Əqdin məbləği | |
| 2.1.17.2 Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi | |
| 2.1.18 Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanmış əqdlər barədə məlumatlar: | Olmayıb. |
| 2.1.18.1 Bağlanmış əqdin mahiyyəti, tarixi və məbləği; | |
| 2.1.18.2 Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi; | |
| 2.1.19 İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 23 iyun 2023-ci il. |
| 2.1.20 İllik hesabatın açıqlanma mənbəyi haqqında məlumat | “Xalq qəzeti”. |

***(manatla)***

**2022-ci il dekabrın 31-nə məcmu gəlir haqqında hesabat (xərclərin xüsusiyyətləri üzrə təsnifləşdirilməsi)**

| | 2021-ci il | 2022-ci il |
|---|---|---|
| Əməliyyat fəaliyyətindən gəlir | 249051.80 | 467384.73 |
| Digər əməliyyat gəlirləri | 46313.45 | 111154.25 |
| Digər gəlirlər | 8260.20 | - |
| Cəmi gəlirlər | 303625.45 | 578538.98 |
| Əmək haqqı və işçilərlə bağlı digər ödənişlər | 189771.88 | 263604.09 |
| Mal-material ehtiyatlarının silinməsi | 21119.55 | 22831.30 |
| Əmlak və avadanlığın köhnəlməsi | 67750.17 | 67418.86 |
| Digər xərclər | 85969.35 | 165887.61 |
| **Xərclər** | 364610.95 | 519741.86 |
| Əməliyyat mənfəəti (zərəri) | -60985.50 | 58797.12 |
| Mənfəət vergisindən əvvəl mənfəət (zərər) | -60985.50 | 58797.12 |
| Mənfəət vergisi xərcləri | -12197.10 | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -48788.40 | - |
| İlin əvvəlinə kapital ehtiyatları | 49662748.58 | 49601800.04 |
| Yenidənqiymətləndirilmənin dəyəri | | - |
| Vergi Məcəlləsilə istifadə edilməmiş və silinmiş güzəştə uyğun təxirə salınmış vergi | -12160.14 | - |
| İlin sonuna kapital ehtiyatları | 49601800.04 | 49776635.92 |

**2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabat**

| | 2022-ci il | 2022-ci il | 2021-ci il | 2021-ci il |
|---|---|---|---|---|
| AKTİVLƏR | | | | |
| Uzunmüddətli aktivlər | | | | |
| Qeyri-maddi aktivlər | 258.33 | | 258.33 | |
| Torpaq,tikili və avadanlıqlar | 50759870.97 | | 50720876.32 | |
| Tikilməkdə olan torpaq,tikili və avadanlıqlar | 81490.30 | | 81490.30 | |
| Təxirə salınmış vergi aktivləri | 27230.12 | | 49404.31 | |
| Sair uzunmüddətli aktivlər. Gələcək dövrün xərcləri | 292900.08 | | 351634.14 | |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 51161749.80 | | 51203663.40 |
| Qısamüddətli aktivlər | | | | |
| Ehtiyatlar | 12381.01 | | 4724.16 | |
| Qısamüddətli debitor borcları | 11862.71 | | 24475.87 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 26639.03 | | 69018.71 | |
| Sair qısamüddətli aktivlər | 0.00 | | 0.00 | |
| Sair qısamüddətli aktivlər. Gələcək dövrün xərcləri | 52391.66 | | 30286.62 | |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 103274.41 | | 128505.36 |
| CƏMİ AKTİVLƏR | | 51265024.21 | | 51332168.76 |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | | |
| Kapital | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 690092,00 | | 690092,00 | |
| Kapital ehtiyatları | 49776635.92 | | 49717838.80 | |
| Bölüşdürülməmiş mənfəət ( zərərlər) | -58797.12 | | -60985.50 | |
| CƏMİ KAPİTAL | | 50407930.80 | | 50346945.30 |
| Uzunmüddətli öhdəliklər | | | | |
| Sair uzumüddətli öhdəliklər. Gələcək dövrün gəlirləri | 257217.03 | | 257017.98 | |
| Digər uzumüddətli öhdəliklər | 525844.44 | | 529844.44 | |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 783061.47 | | 786862.42 |
| Qısamüddətli öhdəliklər | | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 4412.72 | | 3527.55 | |
| Qısamüddətli kreditor borcları | 69619.22 | | 133648.93 | |
| Sair qısamüddətli öhdəliklər. Gələcək dövrün gəlirləri | | | 61184.56 | |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 74031.94 | | 198361.04 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 857093.41 | | 985223.46 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 51265024.21 | | 51332168.76 |

**2022-ci il dekabrın 31-nə pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | 2021-ci il | 2022-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | | |
| Əməliyyat fəaliyyətindən mənfəət (zərər) | -60985.50 | |
| Üstəgəl əmlak və avadanlığın köhnəlməsi | 67750.17 | 67418.86 |
| Çıxılsın silinmiş, istifadə edilməmiş vergi məcəlləsilə güzəştdən yaranmış təxirə salınmış vergi | | |
| **Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər** | | |
| Çıxılsın debitorların artması | -8452.49 | 12613.19 |
| Üstəgəl gələcək dövrün xərclərinin azalması | 1152.54 | 58803.18 |
| Üstəgəl ehtiyatların artması | 17374.05 | -7656.85 |
| Üstəgəl kreditorların artması | -15159.35 | -2029.71 |
| Çıxılsın gələcək dövrün gəlirlərinin azalması | - | - |
| Əməliyyat fəaliyyətində pul vəsaitləri | 1679.42 | 129148.67 |
| Çıxılsın ödənilmiş vergi | 1846.13 | 885.17 |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 3525.55 | 130033.84 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli aktivin əldə olunması | | -106413.52 |
| Çıxılsın tikilməkdə olan torpaq,tikili və avadanlıqların azalması | - | |
| Uzunmüddətli aktivin əldə olunması ilə bağlı pul vəsaitlərinin xaric olması | - | -106413.52 |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 62000 | -66000 |
| Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti | 62000 | -66000 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin artması/azalması | 65525.56 | -42379.68 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə | 3493.15 | 69018.71 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna | 69018.71 | 26639.03 |

**2022-ci il dekabrın 31-nə kapitalda dəyişikliklər haqqında hesabat**

| | Ödənilmiş aksioner kapital | Kapital ehtiyatları | | | |
|---|---|---|---|---|---|
| | | Digər ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital | |
| 2022-ci il yanvarın 1-nə qalıq | 690 092,00 | 49717838,80 | -60985,50 | 50346945,30 | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 58797,12 | 2188,38 | 60985,50 | |
| Dividendlər | | | | | |
| 2022-ci il dekabrın 31-nə | 690 092,00 | 49776635,92 | -58797,12 | 50407930,80 | |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**“GƏNCLİK” ASC-nin RƏHBƏRLİYİNƏ**

***Rəy***

1.Biz, “GƏNCLİK” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra şirkət adlandırılacaq) 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Rəy üçün əsaslar***

2. Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid etik normalar la Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi İESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

3. Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına aid rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlər barədə ayrılıqda rəy vermirik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

4. Rəhbərlik maliyyə hesabtlarının İFRS (beynalxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına , düzgün təqdim edilməsinə , rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik şirkətin fasiləsiz fəaliyyət göstərmək qabliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

5.Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab edilir.

***“F.N.Audit Servis” MMC-nin direktoru – Fuad Əliyev***

**Bakı, 16 may 2023-cü il**

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 134 (30250) 25 iyun 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Cüdoçularımız Avropanı fəth etdilər

**Azərbaycan cüdoçuları yeniyetmələr arasında Avropa çempionatında uğurla çıxış edərək 6 qızıl, 3 bürünc medal qazanıblar.**



Portuqaliyanın Odivelas şəhərində keçirilən yarışda oğlanlar arasında Məhəmməd Məmişov (50 kq), Mirxaliq İskəndərov (55 kq), Məhəmməd Musayev (60 kq), Ramazan Əhmədov (90 kq), Əbil Yusubov qızıl, Mehdi Cəfərov (hər ikisi 66 kq), Əhməd Rüstəmov (50 kq) bürünc medal qazanıblar. Qızların mübarizəsində isə Vüsalə Hacıyeva (48 kq) çempion adına layiq görülüb. Xədicə Qədəşova (52 kq) isə oğlanların mübarizəsində bürünc medala yiyələnib.

Bu nəticə ilə komandamız bütün ölkələrin yığmalarını qabaqlayaraq birinci pillədə qərarlaşıb.

## Xüsusi olimpiyaçılarımız 2 medal da qazandılar

**Almaniyanın Berlin şəhərində Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında komandamızın çıxışı davam edir.**



Yığma komandamıza növbəti medalı cüdocumuz Nihad Cəfərov (60 kq) qazandırıb. Bütün rəqiblərini məğlub edən idmançımız qızıl medala sahib olub. Atletika yarışlarında Elmira Cəfərova uzunluğa tullanma növü üzrə gümüş medala layiq görülüb. Üzgüçülük yarışlarında isə Ağasəlim Abdullayev sərbəst üsulla 50 metr məsafə üzrə ikinci yeri tutub.

Bununla da, yığmamızın qazandığı medalların sayı 24-ə çatıb. Komandamız bu medalları üzgüçülük və cüdo ilə yanaşı, stolüstü tennis, bədii gimnastika, pouerliftinq yarışlarında əldə edib.

## "Krakov-2023": Mübarizə davam edir

**Polşada III Avropa Oyunları davam edir. Yarışların növbəti günündə Azərbaycan idmançıları atıcılıq, boks və taekvondo yarışlarında mübarizə aparıblar.**

Boksçumuz Murad Allahverdiyev (80 kq) və Malik Həsənov (63,5 kq) yarışda uğurla çıxış edərək səkkizdəbir finala vəsiqə qazanıblar. Digər boksçularımız Alfonso Dominges (92 kq), Zeynəb Rəhimova (54 kq) məğlub olublar.

Turnirdə 68 kiloqram çəki dərəcəsində mübarizə aparan taekvondoçumuz Cavad Ağayev də rəqiblərin öhdəsindən gələ bilmədiyi üçün medalsız qalıb.

Qadınların tapançadan 10 metr məsafəyə atəşaçma üzrə komanda yarışlarında yığmamız təsnifat mərhələsinin birinci qrupunda 826 xalla 9-cu olub və finala vəsiqə qazana bilməyib.

Stend atıcılığının skit növündə isə Regina Meftahəddinova 75 hədəfdən 70-ni, Nurlana Cəfərova 75-dən 67-ni dəqiq vurmağı bacarıblar. İyunun 25-də təsnifatın ikinci günündə daha iki dövrədə mübarizə davam edəcək. İlk səkkiz pillədə qərarlaşacaq idmançılar finala vəsiqə qazanacaqlar.

Qeyd edək ki, Azərbaycan komandasının aktivində 2 qızıl, 1 gümüş və 2 bürünc medal var. İyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı mübarizə aparır. Azərbaycan "Krakov-2023"-də 13 növ üzrə 86 idmançı ilə təmsil olunur.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri

## "YouTube" fan kanalları məhdudlaşdırır

**Sosial şəbəkələrdə məşhur və ya tanınmış şəxslərin adına açılmış fan səhifələrinə (pərəstişkarların açdığı səhifələr) tez-tez rast gəlirik. Zaman-zaman eyni adama onlarla fan hesabı açılır və onların həqiqiliyini ayırd etmək çətin olur. "YouTube" bu cür problemləri aradan qaldırmaq üçün bəzi məhdudiyyətlər tətbiq edəcək.**

Məlumata görə, istifadəçilərin belə "fan hesabı" onların kanalının işləməsi üçün kifayət etməyəcək. Artıq başqasının materialını yaymaq və ya bu kanalların adlarını kiçik dəyişikliklərlə istifadə etmək qadağan olacaq. Digər kanalların ümumi görünüşünü, profil şəkli və ya fon kimi kiçik detalları təkrarlayan istifadəçilərin kanalları bağlanacaq.

Qeyd edək ki, şirkət bu addımı ilə izləyicilərin aldadılmasının və kanal sahiblərinin adlarından başqa məqsədlər üçün istifadənin qarşısını almağı planlaşdırır. Yeni qaydaların avqustun 21-dən etibarən qüvvəyə minəcəyi açıqlanıb.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## "WhatsApp"da yeni funksiya işə düşəcək

**"WhatsApp" yenə də öz yenilikləri ilə bizi təəccübləndirməkdə davam edir.**




"WABetaInfo"nun xəbərinə görə, WhatsApp-ın 2.23.13.11 beta versiyasında sınaqdan keçirilmiş funksiyası açıqlanıb.

Bunun sayəsində istifadəçilər fərdi və qrup söhbətlərində mesajın müddətini təyin edə və nə qədər müddətə "pin" də qalacağına qərar verə biləcəklər. ("Pin" whatsAppda mesajların saxlandığı xüsusi yeri göstərir).

Sözügedən özəllik haqqında skrinşot da paylaşılıb. Ekran görüntüsündə 3 fərqli seçim görünür: 24 saat, 7 gün və 30 gün.

Qeyd edək ki, vaxtı keçmiş mesaj "pin"dən avtomatik silinəcək.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## Milyarderin süni intellekt "kəmənd"i

**"SoftBank" texnologiya və maliyyə korporasiyasının rəhbəri, milyarder Masayoşi Son süni intellekt texnologiyasından istifadə edərək "dünyanı ələ keçirmək" planlarını açıqlayıb.**



"Dünyanı biz idarə edəcəyik" – deyən yaponiyalı sahibkar etiraf edib ki, o, "ChatGPT" süni intellekt elementləri olan çatbotun pərəstişkarıdır və süni intellektin yapon texnologiya şirkətinə böhran dövrünün öhdəsindən gəlməyə kömək edəcəyinə inanır.

"Mən hər gün "ChatGPT" ilə əlaqə saxlayıram. "OpenAI"nın yaradıcısı Sem Altmanla da demək olar ki, hər gün ünsiyyətdə oluram. İndi korporasiyamız bazarda özünü "daha da aqressiv" aparacaq", – deyə iş adamı əlavə edib.

Yapon sahibkarın sözlərinə görə, "SoftBank" Yaponiya holdinqinə daxil olan Britaniya çip istehsalçısı "Arm"ın səhmlərinin kütləvi təklifinə hazırlaşır.

"Arm" mobil çip bazarında üstünlük təşkil edir və demək olar ki, hər bir smartfon çipi onun arxitekturasından istifadə edir. "SoftBank" "Arm" 10 milyard dollar dəyərində qiymətləndirir.

*L.QURBANOVA, "Xalq qəzeti"*

Sağlamlıq guşəsi

## Bal şərbəti zəhərləri əridir

**Bəzən halsız olur, gəzməyə, bir iş görməyə ərinirik. Bunun müxtəlif səbəbləri olsa da, əhval-ruhiyyəmizi orqanizmdə toplaşan toksinlərin pozduğunu başa düşmürük. Düşünmürük ki, bədənimizi toksinlərdən təmizləməklə əvvəlki gümrahlığımıza qovuşa bilərik. Bəs bunu necə etmək olar?**



Sən demə, parazitləri toz halına gətirən bir içki ilə bədəndəki toksinlər yox olur. Mütəxəssislərin fikrincə, mədə-bağırsağın işini və həzmi normallaşdırmağa, hüceyrə səviyyəsində toksinlərdən azad olmağa kömək edən həmin içki bal şərbətidir. Orqanizmin təmizlənməsi üçün dietoloqlar ballı su içməyi məsləhət görürlər. Onu hazırlamaq üçün bir çay qaşığı bal bir stəkan çiy, amma isti suda həll edilir. Çiy suda bal klaster bağları əmələ gətirir və müalicəvi xüsusiyyətləri artırır.

Orqanizmi təmizləyən bu içki təkcə həzmi və mədə-bağırsaq traktının işini yaxşılaşdırmır, immuniteti də yüksəldir.

## Ərik kimlərə faydalıdır?

**Əriyin həm təzəsində, həm qurusunda faydalı vitamin və minerallar var. Mütəxəssislərin fikrincə, onun faydası olduğu kimi zərərləri də var.**



Ərik B, C, E, K qrupları vitaminləri, nikotin turşusu, maqnezium, kalsium, kalium, dəmir, yod, fosfor, üzvi turşular, qlükoza, saxaroza, fruktoza, taninlər, pektin, flavonoidlər, sellüloza ilə zəngindir.

Ərik yemək bağırsaq funksiyasını yaxşılaşdırmağa kömək edir, qan damarlarının divarlarını gücləndirir, qocalmanı ləngidir, ürək üçün faydalı olan kalium çatışmazlığının qarşısını alır.

Bununla belə, əriyin bilmədiyimiz zərərləri də var. Ərik allergik reaksiyası olanlara qəti qadağandır. Onu mədə xorası, qastrit, iltihablı bağırsaq xəstəliyi (IBD), tiroid (zob) xəstəliyi, diabet, böyrək xəstəliyi, bəzi ürək xəstəlikləri olanların yeməsi orqanizmə xeyirdən çox zərər verə bilər.

Buna görə, ərik yeyərkən, öncə sağlıq problemlərinizi düşünün.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz



## Əsasən, yağmursuz keçəcək, lakin dağlıq ərazilərə yağıntı düşəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən iyunun 25-də Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 17-22°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət 50-60 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 30-35°, dağlarda gecə 7-12°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## Bişkekdə gənc türkoloqların yay məktəbi

**Bişkekdə Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı və Türkiyə Elmlər Akademiyası (TÜBA) Manas Qırğızıstan-Türkiyə Universitetinin dəstəyi ilə Gənc Türkoloqlar Yay Məktəbinin açılış mərasimi keçirilib.**



Açılış mərasimində çıxış edən Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev türkologiyanın dəyərlərə əsaslanan və müasir dövlət quruculuğunu hədəfləyən bir elm sahəsi olduğunu bildirib. O, türkoloqların bir-biri ilə Türk dövlətləri üçün ortaq məsələlərin müzakirəsini aparmasının vacibliyini vurğulayıb.

Qeyd edək ki, Beynəlxalq Türk Akademiyasının təşkil etdiyi "Gənc Türkoloqlar Yay Məktəbi" türkşünaslıq, türk tarixi, türk ədəbiyyatı, antropologiya, mədəniyyətşünaslıq və arxeologiya sahələrində çalışan və tədqiqatlar aparan gənc alimlərə dəstək məqsədilə keçirilib.

İyunun 19-dan 26-dək davam edən Yay Məktəbi çərçivəsində Türk Dünyasının tarixi, arxeologiyası, dili və ədəbiyyatı ilə bağlı gündəlik mühazirələr və texniki seminarlar, işçi qruplarda müzakirə sessiyaları və mədəni tədbirlər baş tutacaq.

Tədbirdə Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffər Şəkər, Qırğızıstan-Türkiyə Manas Universitetinin rektoru Alpaslan Ceylan, türk dünyasının, eləcə də Azərbaycan, Qazaxıstan, Qırğızıstanın tanınmış ali təhsil ocaqlarının professorları, Türkiyə, Türkmənistan, Özbəkistan, Macarıstan, Monqolustan, Bosniya və Herseqovina, Şimali Makedoniya, Şimali Kipr Türk Respublikası, Başqırdıstan və Tatarıstandan olan gənc alimlər iştirak ediblər.

*Qabil YUSİFOĞLU, "Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5171
SİFARİŞ 1560
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00